QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 214 (6178) 1 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Hikmət Hacıyev: "Ermənistan 28 il ərzində Ağdamda şəhər soyqırımı həyata keçirib"

Bax 3



Ağdam urbisidin (şəhərlərə qarşı soyqırımı) canlı təsviri və etirafıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter"...

## Putin Paşinyanı rədd etdi: Moskva səfəri ləğv edildi!



Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri ləğv edilib. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, buna baş nazirin Rusiya rəhbərliyində yüksək səviyyəli görüşə nail ola bilməməsi səbəb olub. Qeyd olunub ki, Ermənistan tərəfinin N.Paşinyanın prezident...

Bax 3

## "Fransa Senatının qərarı yazılmış kağız parçası Azərbaycan diplomatiyasına xəbərdarlıq siqnalı olmalıdır"

Bax 8

Fransa senatında Azərbaycanın Dağlıq Qarabağ ərazisi ilə bağlı ərazi bütövlüyümüzə hörmətsizlik...




## Naxçıvana yeni yol çəkiləcək



# Azərbaycan dövlətçiliyinin islahatlar və zəfər mərhələsi



Bax 4

## Baş Prokurorluqdan xəbərdarlıq: İşğaldan azad olunan ərazilərə səfər etməyin



Bax 3

Baş Prokurorluq işğaldan azad olunan ərazilərə səfər edən mülki şəxslərə müraciət edib. Qurumdan SİA-ya verilən məlumatda bildirilir ki, son zamanlar mülki şəxslərin işğaldan azad edilmiş ərazilərimizdə minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri almaları...

## 1 DEKABR: Laçının erməni işğalına son!

Bax 8

Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyi arasında noyabrın 10-da imzalanan birgə bəyanata əsasən, Ermənistanın işğalçı qüvvələri dekabrın 1-də Laçın rayonunu tərk edəcək və rayon...



## Dağıdılmış qəbiristanlıqlar, tövləyə çevrilmiş məscidlər...



Bax 12

## Yüz milyonlar hara getdi və futbolumuzu kim "öldürdü"



Bax 9

## Xankəndi Azərbaycanın nəzarəti altına keçir



Bax 10

# Prezidentə yazırlar:
# Siz bu xalqı bir yumruq kimi birləşdirdiniz!

***Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc və qürur hissləri ifadə olunan məktublarda dövlətimizin başçısına minnətdarlıq bildirilir, Zəfər təbrikləri çatdırılır. SİA Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***



Ramil Teymurovdan, Bonn, Almaniya

**Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan!**

Biz, ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlılar ölkəmizdə baş verən son siyasi və hərbi prosesləri, Sizin rəhbərliyiniz altında Silahlı Qüvvələrimizin işğal altında olan torpaqlarımızı qanı və canı bahasına necə işğaldan azad etməsini qürur hissi ilə yaxından izlədik. Bu haqq işində bütün qəlbimizlə Sizin, xalqımızın və Ordumuzun yanındayıq. Sizin müdrik və uzaqgörən siyasətinizin nəticəsində Ordumuz qısa müddətdə işğal altında olan ərazilərimizi mənfur erməni işğalçılarından azad etdi, müstəqil Azərbaycanımızın ərazi bütövlüyü bərpa olunur. Bu mübarizədə biz, hər bir Azərbaycan vətəndaşı öz üzərinə düşən vətəndaşlıq borcunu yerinə yetirməli, bununla fəxr etməlidir.

Düşmənin hərbi əməliyyatlardan kənarda yerləşən Gəncə şəhərinə və onun dinc əhalisinə edilən raket zərbələrini şiddətlə qınayırıq. Heç bir insani çərçivəyə sığmayan bu hərəkətlər düşmənin zəifliyinin əlamətidir. Gəncə əhalisinə və xalqımıza səbir diləyirik.

Möhtərəm Prezident, Sizin siyasi və hərbi iradəniz, xalqımızın birliyi və Ordumuzun əzmkarlığı sayəsində müstəqil Azərbaycanımızın üçrəngli bayrağı tezliklə Qarabağımızın mərkəzi Xankəndi şəhərində dalğalanacaq, regionda sülh və əmin-amanlıq bərpa olunacaq və Azərbaycan xalqı Sizin adınızı tarixə qızıl hərflərlə yazacaqdır. Siz xalqımızın fəxrisiniz.

Tanrı Sizi və xalqımızı qorusun!

Allah ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidlərimizə rəhmət eləsin!

Qarabağ Azərbaycandır!

Şarani Utsiyevdən, Kassel, Almaniya

**Hörmətli cənab Prezident!**

Sizin və Ordunuzun möhtəşəm qələbəsi münasibətilə təbriklərimi çatdırır, həmçinin minnətdarlığımı bildirirəm. Bu, ümumi qələbəmizdir.

Əlil olmasaydım azərbaycanlı qardaşlarımızla birlikdə döyüşüb şəhid olmaqdan şərəf duyardım.

Qələbənizlə məni xoşbəxt bir insan etdiniz. Allah Sizi xeyirlə mükafatlandırsın! Əmin olun ki, çeçen xalqı həmişə Sizin yanınızda olacaq.

Sahilə Fərmanovadan, Beyləqan, Azərbaycan

Müzəffər Ali Baş Komandan! Azərbaycanımızın şərəfli tarixində misli görünməmiş uğurlu addımlarınıza görə Sizə sonsuz təşəkkürümü bildirirəm. Siz uzaqgörən siyasətinizlə, fenomen şəxsiyyətlərə xas idarəetmə bacarığınızla nəinki Azərbaycan tarixinə, dünya tarixinə silinməz İlham Heydər oğlu Əliyev imzası atdınız. Müqəddəs torpaqlarımızın xilaskarı oldunuz. Xalqın ürəyində qurulan sevgi taxtını zirvələrə ucaltdınız. Qürurumuz, fəxrimiz, inam yerimiz oldunuz. Çıxışlarınızla vüqarlı, cəsur xalq olduğumuzu hər dəfə isbat etdiniz. Tanrı Sizi, cəsur, yenilməz Ordumuzu qorusun. Tanrı Sizi, ailənizi bəd nəzərdən, xətadan, bəladan hifz etsin. Var ol, yaşa Prezidentim! Nə qədər ki, Siz varsınız, biz də varıq. Bütöv Azərbaycan var. Dünyaya isbatladığınız haqqınız mübarək! Qarabağ Azərbaycandır!

Həbib Əhmədlidən, Bakı, Azərbaycan

Müzəffər Ali Baş Komandan!

Mən 258 nömrəli məktəbin 3b sinif şagirdiyəm. Sizi şanlı Qələbəmiz münasibətilə təbrik edirəm. Sizinlə və müzəffər Ordumuzla fəxr edirəm. Böyüyəndə mən də hərbiçi olmaq, Vətənimin keşiyində dayanmaq istəyirəm.

Cənab Prezident, istərdim ki, Şuşanın ən yüksək bir yerində torpaqlarımızı işğaldan azad etmiş qəhrəmanlarımıza abidə ucaldılsın. Mən Sizi çox sevirəm və çox xoşbəxtəm ki, bizim ölkəmizə Sizin kimi müdrik şəxsiyyət rəhbərlik edir.

**Qarabağ Azərbaycandır!**

Eliza İsayevadan, Ağdam, Azərbaycan

Cənab Prezident ! Mən bu məktubu Sizə sevinc göz yaşları ilə yazıram. Üzümü Allaha tutub deyirəm: "Nə yaxşı ki, mənim xalqıma Sizin kimi sadə, alicənab, Vətəninə bağlı, xalqını sevən belə bir rəhbər bəxş edib. Tanrı Sizi qorusun cənab Ali Baş Komandan! Siz və Sizin başçılıq etdiyiniz Milli Ordumuzun sayəsində xalqımızın 27 illik torpaq həsrətinə son qoyuldu. Mənə də uşaqlıq və gənclik illərimin xatirəsi olan doğma Ağdam torpağına qovuşmaq nəsib oldu. Cənab Prezident, Sizin və Birinci vitse-prezidentimiz Mehriban xanımın işğaldan azad olunmuş torpaqlarımıza gəlişiniz xalqımızı çox sevindirir. Siz Ağdamda Cümə məscidinə Məkkədən gətirdiyiniz Qurani-Kərimi bağışladınız və çıxışınızda qeyd etdiniz ki, Məkkədə ziyarətdə olarkən işğal altında olan torpaqların azad edilməsi üçün dua etmisiniz. Şükürlər olsun ki, bu arzunuz həyata keçdi. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Sizin kimi ölkə başçısı var. Azərbaycan xalqı Sizə inanır. İnanırıq ki, xarabalığa çevrilmiş torpaqlarımız gülüstana çevriləcək. Bütün bunları həyata keçirmək üçün Tanrıdan Sizə və Sizin ətrafınızda sıx birləşən xalqımıza güc-qüvvət diləyirəm. Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

Sevil Mansurovadan, Bakı, Azərbaycan

**Əziz Prezidentim!**

Mənim 9 yaşım var, 183 saylı məktəbin 4-cü sinif şagirdiyəm. Siz Qarabağ müharibəsini dayandırdınız. Sizə eşq olsun! Sizinlə fəxr edirəm! Siz dünyada ən güclü, ən ağıllı siyasətçi, dəmir iradəsi olan gözəl Prezidentsiniz! Noyabrın 10-u ikiqat sevindim, qürurlandım. Çünki həmin günü mənim də ad günümdür. Sizə çox minnətdaram, Sizi çox sevirəm. Çox istərdim ki, Sizinlə görüşüm.

Zərnişan Abbasovadan, Salyan, Azərbaycan

**Hörmətli cənab Prezidentimiz və Ali Baş Komandanımız!**

Torpaqlarımızın işğaldan azad olunması münasibətilə Sizi, ailənizi, Ordumuzu və xalqımızı təbrik edirəm. Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin göstərdiyiniz şücaət, düzgün siyasətiniz sayəsində Ordumuz Qələbə qazandı və 30 illik həsrətə son qoyuldu. Allah Sizə möhkəm cansağlığı versin. Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyirəm.

Mayis Abdullayevdən, Mingəçevir, Azərbaycan

**Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan!**

Sizi, bütün ailə üzvlərinizi və Azərbaycan xalqını torpaqlarımızın azad olunması və böyük Qələbə münasibətilə təbrik edirəm.

Cənab Prezident, bu Qələbəyə görə biz Sizə, şanlı Ordumuzun bütün zabit və əsgərlərinə borcluyuq. Allah vətən uğrunda canından keçmiş bütün qəhrəman şəhidlərimizə rəhmət eləsin! Mən şəhidlərimizin müqəddəs ruhları, onların valideynləri qarşısında baş əyirəm.

Cənab Prezident, 30 ildir bizlər özümüzü çox günahkar hesab edirdik, sınmışdıq, başıaşağı gəzirdik. Üzdə deyib-gülsək də qəlbən ağlayırdıq, əzab çəkirdik. Xalqımızda bir ruh düşkünlüyü var idi. Çox sağ olun ki, Siz bu xalqın inamını özünə qaytardınız, onu bir yumruq kimi birləşdirdiniz.

Cənab Prezident, Siz erməni vandallarına sübut etdiniz ki, millətimiz qorxmaz, döyüşkən, mübariz və lazım gələrsə, istənilən düşmənin başını yumruqla əzməyə qadir olan millətdir.

68 yaşıma və 2-ci qrup əlil olmağıma baxmayaraq, mən də səfərbərliyə alınmaq üçün müraciət etmişdim.

Uca Allah Sizə uzun ömür, cansağlığı versin. Allah Sizi bu millətə çox görməsin.

Arzu edirəm ki, Siz ömürlük Prezident seçiləsiniz.

Zəka Binyətovdan, Ucar, Azərbaycan

**Müzəffər Ali Baş Komandan, əvəzolunmaz Sərkərdə.**

Sizi Qələbə münasibətilə ürəkdən təbrik edirəm. İllərdir gözü yolda qalan torpaqlarımız Sizin və müzəffər Ordumuz sayəsində işğaldan azad olundu. Halal olsun Sizə, Ali Baş Komandanımız!

Siz bütün xalqın iftixarısınız. Azərbaycan Fatehi, Allah Sizə uzun ömür, cansağlığı versin. Yaşasın ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı Prezidentimiz İlham Əliyev! Ulu Öndərimiz Azərbaycan xalqını xilas etdi. Siz də ərazi bütövlüyümüzü bərpa etdiniz.

**Var olun, cənab Prezident!**

Eşq olsun Ali Baş Komandanımıza!

Amil İsmayılovdan, Ağdam, Azərbaycan

Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan!

Sizin Komandanlığınızla müzəffər Ordumuzun şücaəti sayəsində 30 il düşmən əsarətində qalan torpaqlarımız 44 gün ərzində işğaldan azad edildi.

Siz bizim üçün başımızı uca, çiyinlərimizi dik tutmağa zəmin yaratdınız.

Təkrarolunmaz siyasi və hərbi taktikanızla mənfur düşmənə və onun havadarlarına iki kəlmə ilə dediniz: Şah! Mat!

Siz bütün dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır!

Uca Yaradan Sizi, Ordumuzu, dövlətimizi, xalqımızı qorusun!

Samirə Qasımovadan, Qusar, Azərbaycan

**Cənab Prezident, Müzəffər Ali Baş Komandan.**

Bir Azərbaycan vətəndaşı kimi Sizə bu məktubu yazmağı özümə borc bilirəm. Siz illərdir hər bir azərbaycanlının köksündə yara bağlamış Vətən həsrətinə, Qarabağ ayrılığına son qoydunuz. Düşmən tapdağı olan Vətən torpağı əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Sizin layiqincə davam etdirdiyiniz uğurlu siyasət, güclü və yenilməz Azərbaycan Ordusunun rəşadəti sayəsində azad olundu. Biz bütün Azərbaycan xalqı olaraq böyük bir tarixə şahidlik edirik. Sizin zəngin dünyagörüşünüz, uzaqgörən siyasətiniz, dərin tarixi və diplomatik bilikləriniz ölkəmizin dünya arenasında layiqli təmsil olunmasında əsas rol oynadı.

Cənab Prezident, Sizin rəhbərliyinizlə yaradılan güclü Ordumuz düşmənin 30 ildə qurduğu barrikadaları, mövqeləri 44 günün içində yerlə-yeksan etdi. Bu qürurlu tarixə şahid olduğumuz üçün Sizə sonsuz minnətdarıq.

*Var olsun müdrik Prezidentimiz!*

*Var olsun Azərbaycan xalqı!*

*Var olsun Azərbaycan Ordusu!*

İlqar Quliyevdən, Cəbrayıl, Azərbaycan

**Cənab Prezident.**

Keçmiş məcburi köçkün olaraq Vətən müharibəsində apardığınız hərbi və diplomatik uğurlarınıza görə Sizi təbrik edirəm və Qələbə münasibətilə sonsuz təşəkkür edirəm.

Müzəffər Ali Baş Komandan, Sizin hər bir çıxışınız 10 milyonluq xalqın ürəyindən xəbər verir. Həmişə dəmir yumruğunuz var olsun! Əminik ki, İnşallah, tez bir zamanda Qarabağı cənnət diyara döndərəcəksiniz.

Uca Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür diləyirəm.

**Yaşasın Azərbaycan!**

**Yaşasın Müzəffər Ali Baş Komandan!**

**Yaşasın güclü Ordumuz!**

Qurban Qurbanovdan, Bərdə, Azərbaycan

**Müzəffər Ali Baş Komandan.**

Sizi Qələbə münasibətilə təbrik edirəm. Mən uzun illərdir Şuşa həsrəti ilə yaşayıram. Şuşanı görməsəm də, atam onun haqqında bizə çox danışıb, oranı yalnız şəkillərdə göstərib. Şuşanın düşməndən azad edildiyini eşidəndə çox sevindim, çünki doğma şəhərimizi artıq şəkillərdə yox, real olaraq görəcəyik.

Sizə çox-çox təşəkkür edirəm. Allahdan Sizə, ailənizə və yaxınlarınıza uzun ömür, cansağlığı arzulayıram.

İslam Şabanovdan, Lerik, Azərbaycan

**Çox hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan.**

Lerik rayonunun sakinləri adından erməni işğalçıları üzərində qazandığımız möhtəşəm Qələbə münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik. Bu Qələbə Sizin, qalib Ordumuzun və Azərbaycan xalqının həmrəyliyi və qətiyyəti sayəsində əldə olundu. Eşq olsun Sizə! Eşq olsun Azərbaycan xalqına!

Leyla Salehlidən, Ağsu, Azərbaycan

**Hörmətli cənab Prezident.**

Sizi qazandığımız böyük Qələbə münasibətilə təbrik edirəm. Ərazi bütövlüyümüzün bərpa edilməsində yorulmaz fəaliyyətinizə görə Sizə minnətdarlığımı bildirirəm.

Sizin rəhbərliyiniz altında şanlı Ordumuz əzəli torpaqlarımızı bizə qaytarmaqla üzərimizdən "köçkün" adı götürüldü. Mən fəxr edirəm ki, Sizin kimi müdrik, uzaqgörən və Vətənini, xalqını sevən ölkə başçımız var.

facebook

## Misirin "Cümhuriyyə" nəşri: Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib

Misirin "Cümhuriyyə" nəşri "Azərbaycan Prezidenti heç kimin İslam abidələrini təhqir etməsinə imkan verilməyəcəyini bəyan edib" sərlövhəli məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, jurnalist Mustafa Yasinin müəllifi olduğu məqalədə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin işğaldan azad edilmiş Ağdam məscidinin qarşısında etdiyi çıxışdan sitatlar yer alıb. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı məscidləri bağlayan, islamofobiya yayan dairələrin, yaxud müsəlman məbədlərinə kəsilmiş donuz başları atanların tolerantlıq nümunəsi olan Azərbaycana irad tuta bilməyəcəyini vurğulayıb.




Məqalədə Azərbaycanın dövlət başçısının dini-mənəvi dəyərlərə verdiyi əhəmiyyət diqqətə çatdırılıb. Qeyd olunub ki, Prezident İlham Əliyev bu kontekstdə deyib: "Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax, bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb".

O əlavə edib ki, bir neçə il əvvəl Ağdam məscidində olan ATƏT-in Minsk qrupunun həmsədrləri ermənilərin bu vəhşiliyinə biganə qalıb, beynəlxalq ictimaiyyət qarşısında heç bir məsələ qaldırmayıb. Eyni zamanda, bu cür vəhşiliklər Qərb liderlərində də heç bir narahatlıq yaratmayıb.

## Putin Paşinyanı rədd etdi: Moskva səfəri ləğv edildi!



Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri ləğv edilib. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, buna baş nazirin Rusiya rəhbərliyində yüksək səviyyəli görüşə nail ola bilməməsi səbəb olub.

Qeyd olunub ki, Ermənistan tərəfinin N.Paşinyanın prezident Vladimir Putinlə görüşünü təşkil etməsi səyləri puç olub. Bununla əlaqədar olaraq baş nazirin protokol xidmətinin rəhbəri Moskvadan geri çağırılıb.

## Özbəkistan portalları: Fransa Senatının qətnaməsi Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil




Özbəkistanın "qalampir.uz", "kun.uz",və "azon.uz" portalları Fransa Senatının "Dağlıq Qarabağ respublikası"nın tanınmasına dair qətnamə təklifi"nin səsə qoyulması və qəbul edilməsi ilə bağlı materiallar yayıb.

AZƏRTAC xəbər verir ki, "qalampir.uz" portalında yayılan məlumatda Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev məsələyə münasibəti əksini tapıb. O deyib: "Bu qətnamə Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyil. Dar siyasi ambisiyalar naminə qəbul olunmuş bu kağız parçası beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, Fransanın istər Minsk qrupunun həmsədr ölkəsi, istərsə də BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə bağlı ciddi suallar doğurur".

Portallar bildirir ki, Fransa Xarici İşlər Nazirliyi yanında Dövlət katibi Jan-Batist Lömuan Fransa hökumətinin bu mövzuda mövqeyini xatırladıb. O deyib ki, Fransa qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Yazılarda Qarabağ münaqişəsinin tarixi haqqında da məlumat verilir, Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin müharibənin dayandırılması ilə əlaqədar birgə bəyanat qəbul etdikləri də vurğulanır.

## Baş Prokurorluqdan xəbərdarlıq: İşğaldan azad olunan ərazilərə səfər etməyin



Baş Prokurorluq işğaldan azad olunan ərazilərə səfər edən mülki şəxslərə müraciət edib. Qurumdan SİA-ya verilən məlumatda bildirilir ki, son zamanlar mülki şəxslərin işğaldan azad edilmiş ərazilərimizdə minaya düşərək müxtəlif dərəcəli bədən xəsarətləri almaları, bəzən isə həlak olmaları halları müşahidə edilməkdədir:

"Baş Prokurorluq vətəndaşlarımıza bir daha müraciət edərək, təhlükəsizliyin təmin edilməsi məqsədi ilə işğaldan azad edilmiş ərazilərimizin minalardan və digər partlayıcı maddələrdən tam təmizlənilməsi prosesi başa çatmayana qədər həmin ərazilərə səfər etməməyi xahiş edir".



## Hikmət Hacıyev: "Ermənistan 28 il ərzində Ağdamda şəhər soyqırımı həyata keçirib"

Ağdam urbisidin (şəhərlərə qarşı soyqırımı) canlı təsviri və etirafıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində yazıb. O bildirib: "Şəhərlərin soyqırımı. Ermənistan 28 il ərzində Ağdamda həqiqi urbisid həyata keçirib".

## Diplomatik korpusun nümayəndələri Ağdamda Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşiliklərin şahidi olublar



Noyabrın 28-də Azərbaycandakı diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər. AZƏRTAC-ın müxbiri xəbər verir ki, səfərin məqsədi diplomatları Ermənistan silahlı qüvvələrinin Ağdam şəhərində törətdiyi vəhşiliklər, cinayət izləri ilə tanış etmək olub.



Diplomatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və digər rəsmi şəxslər müşayiət ediblər. Diplomatlar Ağdam şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin nəticələri ilə tanış olublar. Onlar burada ermənilərin 27 il ərzində törətdikləri vandalizmi öz gözləri ilə görüblər. Məlumat verilib ki, ermənilər Ağdamda yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıdıblar.



Hikmət Hacıyev bildirib ki, diplomatik korpusun nümayəndələri ilə yanaşı, bu səfərdə Ağdamın "Qarabağ" futbol klubunun üzvləri, dini konfessiyaların nümayəndələri də iştirak edirlər. "Qarabağ" uzun illərin intizarından sonra artıq doğma Ağdama gəlib.

Prezidentin köməkçisi qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 853 saylı qətnamədə Ağdamın işğalı qəti şəkildə pislənilir və Ermənistan qoşunlarının çıxarılması tələb olunur. O vaxtdan bu günədək Ermənistan öz qoşunlarını Ağdamdan çıxarmamışdı. Azərbaycanın ən çiçəklənən rayonlarından biri olan Ağdam tamamilə məhv edilib. Artıq dünya ictimaiyyəti ermənilərin törətdikləri bu vəhşilikləri real olaraq görür. Erməni vandalizmi göz qabağındadır. Ağdamlılara qarşı törədilmiş etnik təmizləmə beynəlxalq hüquqa əsasən soyqırımı adlandırılırsa, şəhərə qarşı törədilmiş vəhşilik isə urbisid adlandırıla bilər. Bu, 1963-cü ildən bəri beynəlxalq münasibətlərdə şəhərlərin viran qoyulmasını xarakterizə edən bir termindir. Bu gün Ağdam şəhəri dünyada urbisid, yəni, şəhərə qarşı həyata keçirilən soyqırımı muzeyidir. Bunu beynəlxalq ictimaiyyət görür. Ancaq Azərbaycan öz quruculuq siyasəti ilə Ağdamı yenidən dirçəldəcək, cənnətə çevirəcək. Azərbaycan buradakı bütün abidələri yenidən bərpa edəcək, onlara qayğı göstərəcək. Eyni zamanda, erməni işğalı zamanı dağıdılmış xristian abidələri də bərpa ediləcək. Onlar qorunacaq, bəşər sivilizasiyasının tərkib hissəsi olaraq zəruri diqqət və qayğı göstəriləcək. Bu gün dini konfessiyaların nümayəndələrinin də Ağdamda olması ölkəmizin multikulturalizmə, mədəniyyətlərarası, dinlərarası dialoqa töhfəsinin bariz nümunəsidir. Biz simvolik olaraq indi Ağdam məscidinin qarşısındayıq.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov dövlətimizin başçısının müdrik siyasəti nəticəsində Ağdamın bir güllə belə atmadan, bir şəhid vermədən azad edildiyini bildirib. O, Prezidentimizin rəhbərliyi ilə Ağdamın bərpa ediləcəyini, dünyanın dağıdıcı Ermənistandan fərqli olaraq Azərbaycanın nə qədər qurucu dövlət olduğunu görəcəyini bildirib, bütün ağdamlılar adından Müzəffər Ali Baş Komandan minnətdarlıq edib.

Səfərdə iştirak edən dini konfessiyaların nümayəndələri işğaldan azad edilmiş rayonların sakinlərini və bütün Azərbaycan xalqını təbrik ediblər. Onlar, eyni zamanda, gördükləri dağıntılardan kədərləndiklərini bildiriblər.

Dini konfessiyaların nümayəndələri onlara göstərilən diqqət və qayğıya Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirib, ölkəmizdə mövcud olan multikulturalizmdən məmnunluqlarını ifadə ediblər. Həmçinin ölkəmizin ərazisində mövcud olan bütün məbədləri tarixi sərvətimiz hesab edən dövlətimizin başçısına minnətdarlıq ifadə olunub.

Diplomatların diqqətinə çatdırılıb ki, digər tarixi abidələrimiz kimi, XIX əsrin yadigarı olan Ağdam məscidi də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra talan edilib, yandırılıb, dağıntılara məruz qalıb. Ağdam şəhəri işğaldan azad olunduqdan sonra məsciddə təmizlik işləri aparılıb, 27 ildən sonra azan verilib. Diplomatlar burada məşhur fotoqraf Reza Deqatinin 1992-ci ildə Xocalı faciəsindən sonra çəkdiyi fotolara da baxıblar. Sonra Xalq artisti Mənsum İbrahimov Ağdam Dram Teatrının binasının qalıqları önündə "Qarabağ şikəstəsi"ni oxuyub.

Daha sonra Ağdam Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun məzarı ziyarət olunub. Diqqətə çatdırılıb ki, Şəhidlər xiyabanı da erməni vandalları tərəfindən yerlə-yeksan edilib, məzarların yeri belə bilinmir. Burada mindən artıq məzar var idi. Onlar ermənilər tərəfindən tamamilə dağıdılıb. Diplomatlar Çörək muzeyinə, Qarabağ xanı Pənahəli xanın imarətinə (XVIII əsr), Natəvanın və onun oğlunun türbəsinə (XIX əsr) də baxıblar. Səfər zamanı "Qarabağ" futbol klubu 27 ildən sonra doğma meydanda - məşhur "İmarət" stadionunda simvolik futbol matçı oynayıb.

# Azərbaycan dövlətçiliyinin islahatlar və zəfər mərhələsi

"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

*(Ümummilli Lider Heydər Əliyev)*



***Azərbaycanın müstəqilliyini bərpa etməsindən 29 il ötür. Təəssüf ki, müstəqilliyimizin ilk illəri Azərbaycanda faktiki hakimiyyətsizlik, iqtidarla xalq arasında ən ümdə milli hədəflər naminə vəhdət və həmrəyliyin olmaması, hakimiyyət uğrunda mübarizə şəraitində keçmiş, ölkənin maddi, mənəvi, iqtisadi resursları dağıdılmışdır. Belə bir vəziyyət Azərbaycanın ərazi itkilərinə səbəb olmuş, dövlətimiz vətəndaş müharibəsi təhlükəsi ilə üzüzə qalmışdı.***

## Ümummilli Liderin xilaskarlıq missiyası

Vətən tarixinə şanlı qurtuluş səhifəsi kimi yazılmış 1993-cü ildən etibarən Ümummilli Lider Heydər Əliyev Azərbaycanı fəlakətdən xilas etmək missiyasına və dünya düzənində müasir dövlətçiliyimizin quruculuğuna başlamışdır. 1992-ci ildə xalqın adından onu yenidən ümumrespublika səviyyəsində aktiv siyasi fəaliyyətə dəvət edən 91 ziyalıya verdiyi cavabla Ümummilli Lider yalnız öz siyasi manifestini deyil, Azərbaycan dövlətinin gələcək hədəflərini müəyyən etdi, XIX əsrin sonları, XX əsrin əvvəllərində rüşeym halından Xalq Cümhuriyyətinin elanınadək qısa müddətdə sürətli inkişaf yolu keçmiş azərbaycançılıq ideologiyasının yeni baxışla yeni dövrə uyğunlaşdırılmasının əsasını qoydu. 1992-ci ilin siyasi mühitini yada salanda, bu gün həmin manifest-cavab dahiyanə uzaqgörənlik nümunəsi, müstəqil dövlət quruculuğu proqramı, milli xilas, islahat və inkişaf platforması kimi daha düzgün dərk olunur.

Ümummilli Lider o zaman dəbdə olan etnik millətçiliyin doğurduğu fəsadları diqqətə çatdırıb xalqçı-dövlətçi mövqe ortaya qoyaraq qeyd edirdi ki, Azərbaycan onilliklərlə, yüzilliklərlə mövcud ərazisində yaşayan bütün insanların vətənidir: "Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir". Ulu Öndərin təsəvvüründəki yeni Azərbaycanın gələcək inkişafının təməl prinsiplərini demokratik inkişaf, plüralist cəmiyyət, çoxpartiyalılıq, iqtisadiyyatın liberallaşdırılması kursu təşkil edirdi. Xalqın dəvətilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyev müstəqil dövlətimizin məhz bəyan etdiyi həmin prinsiplər əsasında inkişafına nail oldu.

O vaxt ölkədə anarxiya hökm sürürdü. Yalnız Ulu Öndər Heydər Əliyev 1993-cü ilin oktyabrında Prezident seçildikdən sonra noyabrın 2-də radio və televiziya ilə Azərbaycan xalqına etdiyi müraciətlə ölkədə ciddi dövlət və ordu quruculuğuna başlanıldı, cəbhə xəttində düşmənə ilk böyük zərbələr vuruldu.1994-cü ilin mayında Ermənistanla müharibədə atəşkəs elan edilməsi ilə qazanılmış vaxtdan isə siyasi, iqtisadi islahatlar aparmaq, faktiki olaraq dağılmış ölkəni yenidən qurmaq, dünya birliyinin tamhüquqlu üzvünə çevirmək üçün istifadə edildi: vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, hakimiyyətin silahlı çevrilişlər yolu ilə dəyişdirilməsi praktikasına son qoyuldu, Azərbaycanın gələcəyinə strateji təminat verən neft-qaz müqavilələri imzalandı, silahlı qüvvələrin komplektləşdirilməsi sürətləndi, beynəlxalq aləmlə münasibətlər sahmana salındı, tərəfdaş ölkələrin sayının artırılması üçün addımlar atıldı, yeni Konstitusiya qəbul edildi, çoxpartiyalı sistem əsasında parlament seçkiləri keçirildi, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində ciddi tədbirlər reallaşdırıldı, senzura, media üzərində dövlət nəzarəti mexanizmləri ləğv olundu, təhsil islahatları davam etdirildi, keçmiş sovet məkanında ilk dəfə olaraq geniş və ədalətli aqrar islahatlar aparıldı.

## "Qara qızıl"ın insan kapitalına çevrilməsi

Ulu Öndərin başladığı quruculuq, inkişaf, beynəlxalq birliyə açılma, ümummilli hədəflər naminə cəmiyyətin bütün sosial və siyasi kəsimlərini əhatə edən həmrəylik kursu onun siyasi varisi, 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev tərəfindən uğurla davam etdirildi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin", - sözləri təkcə yeni dövr üçün verilmiş seçki vədi deyildir. Bu sözlərin xalqa xidmət üçün fəaliyyət proqramı, siyasi kredo olduğu hər gün real işlərlə təsdiqlənir. Azərbaycana rəhbərlik etdiyi illər ərzində Prezident İlham Əliyev elan etdiyi platformaya sadiq qalmış, ölkənin dini, etnik, sosial və siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşının Prezidenti olduğunu əməldə nümayiş etdirmiş və bu gün də bu xəttə sədaqətini nümayiş etdirməkdədir.

Prezidentin ilk addımları Ümummilli Liderin əsasını qoyduğu neft siyasətini uğurla hədəf mərhələsinə çatdırmaq, daxil olan neft gəlirlərini nəzərdə tutulan məqsədlərə - böyük quruculuq işlərinə, əhalinin sosial rifahının yüksəldilməsinə yönəltmək oldu. Dövlətimizin başçısı demişdir: "Neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir". Azərbaycanda yoxsulluğun azaldılmasına, regionların inkişafına dair dövlət proqramları qəbul olundu, böyük sosial-iqtisadi və mədəni-mənəvi irəliləyiş əldə edildi, iqtisadiyyatın hər bir sahəsində: neft-qaz hasilatında, neftkimya sənayesində, kənd təsərrüfatında, turizmdə, enerji sektorunda, nəqliyyatda, mədən sənayesində, yüngül və qida sənayesində, qeyri-neft sektorunda və s. ciddi nailiyyətlər qazanıldı. İqtisadiyyata 250 milyard dollar investisiya qoyuldu, ölkənin iqtisadi potensialı bir neçə dəfə böyüdü, valyuta ehtiyatları 50 milyard dollara çatdırıldı, yoxsulluq və işsizlik minimum səviyyəyə endirildi, 2 milyona yaxın yeni iş yeri açıldı, əməkhaqqı və pensiyalar dəfələrlə artırıldı, biznes mühitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirildi, güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötdü.

Dövlətimizin başçısı ötən ilin əvvəlində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirirdi: "Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək". İlham Əliyevin dövlətçilik fəlsəfəsinin qayəsini, siyasi fəaliyyətinin məhvərini məhz bu prinsip təşkil edir - xalqa ləyaqətlə xidmət etmək. Cənab Prezidentin leksikonunda tez-tez rastlaşdığımız "mən xalqın xidmətçisiyəm", "hər bir məmur xalqının xidmətçisi olmalıdır" - fikirləri bu konseptual baxışın fəlsəfəsini dərk etmək üçün ən gözəl açar sözlərdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sadəcə zahiri modernləşmə, infrastruktur yenilənməsi baş verməyib, eyni zamanda, dövlət aparatının müasir standartlara uyğunlaşdırılması, optimallaşdırılması, sistem xarakterli fundamental islahatlar aparılması istiqamətində mühüm addımlar atılıb. "Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir", - deyən dövlətimizin başçısının müvafiq sərəncamları ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilib, əhaliyə göstərilən xidmətlər vahid sistemdə birləşdirilərək "ASAN xidmət" mərkəzləri yaradılıb. Dövlətimizin başçısının əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin (DOST) yaradılması və digər qərarları xalqa xidmət siyasətinin davamıdır.

2003-cü ilin oktyabrından ötən müddət ərzində ölkədə 3000-dən çox məktəb, 650-dən çox tibb müəssisəsi, ali təhsil ocaqları, yüzlərlə tarixi bina, teatr, muzey, idman sarayı, sosial reabilitasiya mərkəzi, Olimpiya Kompleksi və s. obyektlər əsaslı təmir və ya inşa edilib, ən müasir avadanlıqlarla təchiz olunub.

Bütün bu addımlar, aparılan quruculuq işləri, islahatlar, əlbəttə ki, insan amilinə dayanır. Prezidentin bu illər ərzində gənclərlə və təhsillə bağlı siyasəti onun "qara qızılı insan kapitalına çevirmək" çağırışına necə əməl edilməsinin sübutudur. Bu sahələr üzrə çoxsaylı dövlət proqramları qəbul edilərək həyata keçirilmiş, yeni təhsil müəssisləri, müasir dövrün tələblərinə uyğun ixtisaslar açılmış, xaricdə təhsil proqramlarından minlərlə Azərbaycan gənci bəhrələnmişdir. Dövlətimizin başçısı demişdir: "Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Çünki bugünkü dünyada bilik, savad ön plandadır".

## Beynəlxalq aləmdə etibarlı tərəfdaş, regionda lider dövlət

Prezident İlham Əliyevin hakimiyyəti illərində ölkənin sosial-iqtisadi infrastrukturu bütövlükdə yenidən qurulmuş, 15 min kilometrdən çox yol çəkilmiş, 450 körpü inşa olunmuş, 4 yeni metro stansiyası açılmış, 7 hava limanı, Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı inşa edilmiş, Azərbaycan böyük enerji və nəqliyyat qovşağına çevrilmişdir. Beynəlxalq reytinqlərə əsasən, respublikamız avianəqliyyat, dəmir yolu sahələri üzrə dünyada 11-12-ci yerləri, yol infrastrukturunun keyfiyyətinə görə 27-ci yeri tutur. Azərbaycan artıq dünyanın kosmik dövlətlər klubuna qoşulmuşdur. Avropa və Asiyanı birləşdirən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülmüşdür. Nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilmiş, "Yeni əsrin müqaviləsi" imzalanmış, Cənub Qaz Dəhlizi, onun tərkib hissəsi olan TANAP boru kəməri açılmışdır. Yaxın vaxtlarda TAP-ın açılacağı gözlənilir. Bu layihələr respublikamızın perspektiv inkişafına və iqtisadi maraqlarına xidmət etməklə yanaşı, yaxın tərəfdaşlarımız olan Türkiyənin, Gürcüstanın, İsrailin və Avropa dövlətlərinin enerji təhlükəsizliyini təmin edən yeganə alternativ mənbə və tranzit ölkə kimi Azərbaycanın geosiyasi dəyərini artırır.

Ulu Öndərin müəyyənləşdirdiyi balanslaşdırılmış çoxvektorlu xarici siyasət kursu uğurla davam etdirilmişdir. Dünyanın ən fərqli geosiyasi qütbləri ilə münasibətlər qorunmuş, beynəlxalq güc mərkəzlərindən gələn təzyiqlər nəinki uğurla neytrallaşdırılmış, həm də toqquşan maraqlar uzlaşdırılaraq Azərbaycan sabitliyin hökm sürdüyü əməkdaşlıq məkanına çevrilmişdir. Ermənistan istisna edilməklə Azərbaycanın heç bir region ölkəsi ilə problemləri yoxdur, bütün dövlətlərlə bərabərhüquqlu ikitərəfli, üçtərəfli formatlarda tərəfdaşlıq münasibətləri var. Bu gün regionla bağlı elə bir məsələ yoxdur ki, Azərbaycanın rəyi nəzərə alınmadan, iştirakı olmadan həll edilsin. Azərbaycan dünyada müsbət imicə malik olan etibarlı tərəfdaş kimi tanınır. Bunun ən bariz nümunəsi Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi idi. BMT, İslam Əməkdaşlıq Təşkilati, Avropa Şurası Parlament Assambleyası, Avropa İttifaqı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı, ISESCO, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO Parlament Assambleyası və digər beynəlxalq və regional təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanın işğalçılıq siyasətini pisləyən çoxsaylı qərar və qətnamələr qəbul etmişlər.

Ardı Səh. 5

# Azərbaycan dövlətçiliyinin islahatlar və zəfər mərhələsi

Əvvəli Səh. 4

Azərbaycan bu gün iki nüfuzlu beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik edir. Məhz beynəlxalq müstəvidə aparılan bu ölçüyəgəlməz fəaliyyətin nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü hərbi-siyasi yolla həll etmək üçün ciddi hüquqi baza yaratmışdır. Prezident işğaldan azad olunmuş Ağdama səfəri zamanı etdiyi çıxışda demişdir: "Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır".

## Hər bir azərbaycanlının qürur mənbəyi

Ölkədə aparılan modernləşdirmə və quruculuq işlərində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, birinci xanım Mehriban Əliyevanın xüsusi rolu vardır. İlk dəfə XIX əsrdə meydana çıxan birinci xanım təsisatı, əsasən 1930-cu illərdə ABŞ-da Eleneora Ruzveltin aktiv ictimai fəaliyyəti ilə institusionallaşmış, sosial təşəbbüsləri, xalqla sıx təmasları, eləcə də hüquqların genişləndirilməsi, mədəni irsin qorunması kimi sahələrdə ardıcıl təşəbbüsləri ona xüsusi populyarlıq gətirmişdi. Beynəlxalq müstəvidə apardığı işi nəzərə alaraq E.Ruzvelti bəzən "dünyanın birinci xanımı" da adlandırırdılar.

Azərbaycanda birinci xanım təsisatı ilk dəfə Mehriban xanımın fəaliyyəti ilə gündəmə gəlmişdir. 2005-ci ildən parlamentin üzvü olan Mehriban xanım yalnız öz seçicilərinin deyil, bütün Azərbaycan vətəndaşlarının qayğı və problemlərinin həllinə yardım göstərir, qanunvericilik və amnistiya təşəbbüsləri ilə çıxış edirdi. Şəfqət, xeyirxahlıq, bağışlamaq bacarığı əsl dövlət xadimlərinə xas olan ali keyfiyyətlərdir. Mehriban xanımın 2004-cü ildən rəhbərlik etdiyi, Cənubi Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərin, multikulturalizm ənənələrimizin, mədəni irsimizin qorunmasında və dünyada təbliğində mühüm rol oynamış, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına töhfə verən bir sıra böyük layihələr həyata keçirmiş, ölkədə həm məscidlərin, həm də əsrlərlə xalqımızla dinc yanaşı yaşamış dini azlıq icmalarına məxsus məbədlərin bərpası və inşasında fəallıq nümayiş etdirmişdir.

Mehriban xanımın təşkilatçılığı ilə Bakıda Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Dünya gənclərinin IV məşğulluq sammiti (YES) və digər beynəlxalq tədbirlər yüksək səviyyədə keçirilmişdir.

Fondun dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi mədəni və sosial layihələr Azərbaycanın beynəlxalq nüfuzunun artırılmasına xüsusi töhfə verir. Fond Rumıniya, Pakistan, Rusiya və digər dövlətlərdə təbii fəlakətlərdən və ya xəstəliklərdən əziyyət çəkən insanlara yardımlar etmiş, Gürcüstan, Hollandiya, Misir, Rumıniya, ABŞ, Bosniya və Herseqovina, Pakistan və Rusiyada bir sıra məktəblərin yenidən qurulmasında və təmirində iştirak etmişdir. Tiflisdə Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundzadənin, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələri, Berlində Xocalı soyqırımı, Romada Nizami Gəncəvinin, Moskvada Mirzə Fətəli Axundzadənin, Vyanada Üzeyir Hacıbəylinin, İsgəndəriyyədə Nizami Gəncəvinin, Sankt-Peterburqda Hüseyn xan Naxçıvanskinin abidələri ucaldılmış, Parisdə Versal Sarayı parkındakı ümumbəşəri abidələr, Luvr Muzeyi, Berlin qəsri, Vatikanda Roma katakombaları, Romada Kapitolini Muzeyinin "Filosoflar zalı" təmir və ya bərpa edilmiş, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi, Luvr Muzeyində İslam incəsənəti bölməsi yaradılmışdır.

Mehriban xanım UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi hər iki təşkilatın Azərbaycanla əlaqələrinin genişlənməsində, ölkəmizin lehinə çoxsaylı qərarların qəbulunda bilavasitə iştirak etmişdir: Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi", Şəki şəhərinin tarixi hissəsi və Şəki Xan Sarayı UNESCO-nun dünya mədəni irsi siyahısına; aşıq, xalçaçılıq, tar ifaçılığı və hazırlanması sənətləri, Novruz bayramı, dolma, lavaş və kəlağayı, Azərbaycan muğamı, Lahıc misgərlik sənəti, çövkən oyunu Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Fond tərəfindən "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" layihələri icra edilir, 35 mindən çox insanın yerli klinikalarda müalicəsinə, 8 minə yaxın xəstənin respublikanın müxtəlif tibb müəssisələrində və ya xarici ölkələrdə cərrahi əməliyyat olunmasına kömək edilmişdir. Fondun dəstəyi ilə Bakıda, respublikamızın müxtəlif şəhər və qəsəbələrində yüzlərlə səhiyyə müəssisəsi, məktəb binası, uşaq bağçası, yeni mədəniyyət obyekti, muzey, musiqi məktəbi, kitabxana, Ağcabədidə Qarabağ və Bakıda Beynəlxalq Muğam mərkəzləri, Gəncədə Nizami Gəncəvi Muzeyi, Məhsəti Gəncəvi Mərkəzi, Bakıda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün binalar inşa və ya təmir edilmiş, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi, Etno-Ekoloji Mərkəzi və Qala Əntiq Əşyalar Muzeyi, Bakı Müasir İncəsənət Muzeyi və s. yaradılmışdır.

Mehriban xanım bütün ictimai-siyasi fəaliyyəti ərzində Azərbaycanda bir çox ilklərə imza atmışdır. 2017-ci il fevralın 21-də Birinci vitse-prezident təyin edildikdən sonra Mehriban xanım Əliyeva bu ilki də Azərbaycanın siyasi reallığına çevirmiş, müxtəlif istiqamətlər üzrə dövlət siyasətinin daha müvəffəqiyyətlə həyata keçirilməsinə öz töhfələrini vermişdir. Dövlətimizin başçısı İlham Əliyev 2020-ci il oktyabrın 21-də Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində Mehriban xanımın Birinci vitse-prezident kimi fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa və vətəndaşların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz...O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o, bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir".

## İslahatların yeni dalğası

Prezident İlham Əliyev 2018-ci il aprelin 18-də andiçmə mərasimində islahatların yeni dalğasını anons etmiş, ölkənin ictimai-siyasi-mədəni həyatının hər bir sahəsini əhatə edən çoxşaxəli islahatların yeni mərhələsi başlanmışdır. Dövlətimizin başçısı islahatlar modelini yığcam olaraq belə ifadə etmişdir: "Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik".

Bu gün hakimiyyətin bütün qollarında-qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində islahatlar gedir, prosesi asanlaşdırmaq məqsədilə yeni hüquqi aktlar qəbul edilir, heç bir dövlət orqanı yenilənmə, islahat kursundan kənarda qalmır. Ölkənin ictimai-siyasi həyatının mənzərəsini müsbət mənada dəyişdirən bu siyasi-hüquqi, institusional və kadr islahatları 2019-cu ilin son aylarından etibarən daha da intensivləşmişdir. Nazirlər Kabinetində, Milli Məclisin Aparatında, hüquq-mühafizə orqanlarında struktur və kadr dəyişiklikləri aparılmış, 2019-cu ilin noyabrında Prezident Administrasiyasının yeni strukturu təsdiqlənmiş, ilk dəfə olaraq Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradılmışdır. Bu, ölkə rəhbərliyinin siyasi partiyalarla müntəzəm iş aparılması, sağlam əməkdaşlıq qurulması, habelə Milli Məclis ilə daha müntəzəm əlaqələrin təşkilinə verdiyi əhəmiyyətdən irəli gəlirdi.

Qanunverici hakimiyyətin islahatlar kursu ilə ayaqlaşması üçün hakim Yeni Azərbaycan Partiyası Milli Məclisin buraxılaraq seçkilərin vaxtının qabağa çəkilməsi təşəbbüsü ilə çıxış etmiş, islahatlara yeni sürət qazandırmışdır.

2020-ci il fevralın 9-da keçirilmiş parlament seçkilərində bütün siyasi qüvvələrin, siyasi partiyaların maneəsiz iştirakına şərait yaradılması sayəsində Milli Məclisin yeni tərkibdə, çoxpartiyalılığa əsaslanmaqla yenidən formalaşması islahatlara çox mühüm bir töhfədir. Həmin vaxt ölkədə rəsmən mövcud olan 55 siyasi partiyadan 20-si seçkilərdə iştirak etmişdir. Ümumilikdə, seçkilərə qatılmış 1314 namizəddən 305 nəfəri siyasi partiya üzvü olmuşdur. Həmin 305 şəxsdən 244-nün namizədliyi mənsub olduğu siyasi partiya tərəfindən, 61-nin namizədliyi isə özü tərəfindən irəli sürülmüşdür. Seçkilərin yekunu olaraq parlamentə seçilmiş 121 nəfərdən 70-i YAP, 10-u müxalif partiya nümayəndəsi, 41-i isə bitərəf olmuşdur.

Mütləq çoxluqda olan YAP üzvləri və bitərəflərlə yanaşı mandat qazanmış 8 müxalifət partiyasının üzvləri də müstəqil Azərbaycanın parlamentarizm tarixində ilk dəfə həm Milli Məclisin, həm də daimi komitələrin rəhbərliyində təmsil olunmuşlar. Milli Cəbhə Partiyasının və Respublikaçı Alternativ Partiyasının dövlət qeydiyyatına alınması ilə Milli Məclisdə təmsil olunan partiyaların sayı 11-ə çatmışdır ki, bunlardan 10-u müxalif mövqelidir.

Deputat seçilmiş şəxslərdən 44 nəfəri ilk dəfə parlamentari kimi fəaliyyətə başlamışdır. Onlardan 24 nəfəri hakim partiyanı, 18 nəfəri bitərəfləri, 2 nəfəri isə müxalif partiyaları təmsil edir. Beləliklə, deputat seçilmiş şəxslərin (121 nəfərin) ümumi tərkibinin təxminən 35,5 faizi yenilənmiş, cəmiyyətin daha geniş kəsimi parlament vasitəsilə dövlət idarəçiliyində təmsilçilik imkanı əldə etmişdir. Hakim siyasi partiya da "öz vitrininə" yeni simalar çıxarmaqla yenilənməyə başlamışdır. Müstəqil Azərbaycanın siyasi tarixində ilk dəfə olaraq Milli Məclisin sədri postuna qadın seçilmişdir. Yeni daimi komitələr yaradılmış, parlament aparatında struktur və kadr dəyişiklikləri aparılmışdır.

Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılmasından bir ilə yaxın zaman keçir və düşünürəm ki, ilkin yekunları qeyd etməyə artıq müəyyən əsaslar var. Şöbədə ölkənin siyasi həyatı üçün mühüm olan məsələlər, siyasi partiyaların fəaliyyəti, siyasi mühit, parlamentarizm ənənələri, qonşu ölkələrin Azərbaycanın daxili siyasətinə yönəlmiş addımları mütəmadi təhlil edilir, siyasi proseslər proqnozlaşdırılır, dövlətin görəcəyi adekvat tədbirlərlə bağlı təkliflər hazırlanır, qanunvericilik hakimiyyəti ilə icra hakimiyyəti arasında əlaqələrin və qanunvericilik prosesinin tənzimlənməsinə, eləcə də siyasi partiyalar haqqında qanunvericiliyin tələblərinə əməl olunmasına, siyasi işin daha təkmil qurulmasına, bu sahədə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə nəzarət edilir.

Prezidentin daxili və xarici siyasətinin, apardığı Vətən müharibəsinin, eləcə də koronavirus pandemiyası ilə mübarizə sahəsində atılan məqsədyönlü addımların təbliği məqsədilə Milli Məclis, mərkəzi və yerli icra hakimiyyəti orqanları, siyasi partiyalar, ictimai-siyasi fəallar, müvafiq qeyri-hökumət təşkilatları, o cümlədən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Azərbaycan Ağsaqqallar Şurası və media ilə sıx əməkdaşlıq edilməkdədir.

Ölkədə yeni siyasi mədəniyyət yaranır

Şöbə üçün son bir ilin ən mühüm yekunu isə bundan ibarətdir ki, dövlətimizin başçısının qarşıya qoyduğu tapşırıqların icrası nəticəsində Azərbaycanın siyasi həyatı daha konstruktiv dinamikaya köklənmiş, yersiz qarşıdurma, siyasi ittiham, inciklik, süni hüquqi maneələrlə bu və ya digər siyasi xadimlərin və qüvvələrin marginallaşdırılması, partiyalar, siyasi qüvvələrarası ifrat qütbləşmə, bir-birini qəbul etməmək, ayrı-ayrı şəxslərə, bəzən şübhəli dairələrə xidmət etmək, sifariş əsasında hansısa qurumları hədəfə gətirmək kimi olduqca mənfi meyillər, demək olar ki, aradan qaldırılmışdır. Obrazlı desək, ölkədə gedən quruculuq işləri, islahat kursu, nəhayət ki, partiya təsərrüfatına da çatmışdır.

Bu ilin fevral ayında şöbə tərəfindən aparılmış ilk monitorinqin nəticəsində müəyyən edilmişdir ki, dövlət qeydiyyatında olan 55 siyasi partiyadan 8-nin sədri vəfat edib, 6-sının sədrinin səlahiyyət müddəti nizamnamə ilə tənzimlənməyib, mövcud siyasi partiyaların bir çoxunun uzun illərdir (bəzən 20 ilə qədər müddətdən söhbət gedir) ya sədri yoxdur, ya da sədr adına iddia edən şəxslər legitim deyillər. Nəinki sədrlər, uzun illər qurultayları keçirilmədiyindən 21 siyasi partiyanın heç bir ali orqanları seçkili və legitim sayılmırdı. 7 siyasi partiya isə qanunvericiliyin tələblərini nəzərə almadan maliyyə hesabatlarını Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim etməmişdir. Beləliklə, onlarla partiyanın legitimliyi şübhə altında idi. Yalnız 16 partiyanın qurultayı nizamnaməyə uyğun keçirilmiş və yeni sədrin seçilməsi ilə əlaqədar müvafiq sənədlər Ədliyyə Nazirliyinə təqdim edilmişdi.

Burada bir tərəfdən müvafiq orqanların səhlənkar münasibətinin rolu var idisə, digər tərəfdən fəaliyyətlərinə diqqət deyil, etinasızlıq, bəzən də dediyimiz kimi, süni maneələr hiss edən qüvvələr, faktiki olaraq, görüntü ilə, kağız üzərində işlə, yalnız seçki kampaniyaları zamanı bu və ya digər təmənna müqabilində özlərini yada salmaqla kifayətlənmişlər. Bəzən də qeydə alınmış partiyası olmaq, sözün müstəqim mənasında, sərmayə sayılmış, müəyyən cəlbedici təkliflərin qarşılığında partiyalar cari siyasi bloklara qoşulmuş, perspektivli və maddi imkanlı təsiri bağışlayan şəxslər ətrafında təmərküzləşmiş, yeni siyasi çətir qəbul etmişlər. Belə hüquqi nizamsızlıq, real partiyaların qeydiyyatı önündə süni əngəllər olduğu halda real fəaliyyəti olmayan partiyaların işinin hüquqi çərçivədə tənzimlənməməsi hər hansı fors-major hallar üçün də ciddi problemlər mənbəyidir.

Azərbaycan Prezidentinin tapşırığı ilə Şöbənin rəhbərliyi cari il fevralın 17-dən martın 12-dək 55 siyasi partiyanın fəaliyyətdə olan 43 sədrindən 38-i ilə, eləcə də bir çox tanınmış siyasi xadimlə görüşlər keçirmişdir. Sonralar da görüşlər davam etdirilmiş, artıq real fəaliyyətdə olan 52 partiyadan 51-nin rəhbəri ilə təkrar görüşlər keçirilmişdir. Görüşlərdə səsləndirilən fikir və təkliflər araşdırılaraq, müvafiq addımlar atılmışdır. Zaman məhdudiyyəti qoyulmayan görüşlərdə müstəqilliyin qorunması, milli həmrəylik, korrupsiyaya qarşı mübarizə, iqtidar-müxalifət dialoqunun inkişafı, yeni siyasi konfiqurasiyanın formalaşması, Prezidentin islahatlar kursu, çoxpartiyalı sistemin inkişaf perspektivləri, ölkənin tolerant və sülhpərvər imicinin qorunması, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz siyasəti və digər aktual ictimai-siyasi mövzular müzakirə edilmişdir.

Ardı Səh. 6

# Azərbaycan dövlətçiliyinin islahatlar və zəfər mərhələsi

Əvvəli Səh. 5

Ölkə ictimaiyyəti Prezident İlham Əliyevin milli və siyasi həmrəyliyə xidmət edən təşəbbüslərinin şahididir. Bu il martın 10-da Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasındakı nitqində bu görüşlərin xarakteri, məqsədi və ilkin nəticələri haqqında məlumat vermiş, gələcəkdə çoxpartiyalı idarəçilik sisteminin oturuşması üçün iqtidar komandasının iradəsi olduğunu və parlamentin də bu istiqamətdə hüquqi baza yaratmalı olduğunu vurğulayaraq demişdir: "Prezident Administrasiyasının nümayəndələri son vaxtlar, demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirir. Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. İndiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq olmadan həyata keçirilə bilməz...Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq".

Şöbə tərəfindən bu il martın 11-də Milli Məclis Sədrinin iştirakı ilə parlamentdə təmsil olunan siyasi partiyalarla parlamentdə, iyulun 7-də isə "Azərbaycanda yeni siyasi konfiqurasiya: Pandemiya dövrü və yeni çağırışlar" mövzusunda videokonfrans formatında görüşlər keçirilmişdir. İyul görüşünün sonunda müzakirə olunan istiqamətlər üzrə dövlətimizin başçısının siyasətini dəstəkləyən bəyanat qəbul olunmuşdur.

Aparılan siyasi dialoqun məntiqi nəticəsi kimi bu il iyulun 15-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si, oktyabrın 10-da Fransanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğu ədalətsiz mövqeyə dair 50 siyasi partiya, oktyabrın 12-də Ermənistanın yeni hərbi təcavüzü, dinc sakinləri, uşaqları, mülki obyektləri, beynəlxalq nəqliyyat-kommunikasiya və tranzit xətlərini hədəfə alması haqqında 50 siyasi partiya sədri daxil olmaqla 140 tanınmış ziyalı, ictimai-siyasi fəal, etnik azlıqların nümayəndələri, oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi mütəmadi olaraq raket atəşinə tutması, mülki əhaliyə qarşı müharibə cinayətləri törətməsi, Gəncəyə dəhşətli hücumu haqda 50 siyasi partiya, noyabrın 25-də Fransa Senatında Dağlıq Qarabağdakı qondarma qurumun tanınması məsələsinə baxılması ilə bağlı 49 siyasi partiya beynəlxalq və regional təşkilatlara birgə bəyanat və müraciətlər ünvanlamışlar. Bəyanat və müraciətlərdə siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları Müzəffər Ali Baş Komandanın Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi-hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildirmiş, beynəlxalq təşkilatların, ATƏT-in Minsk qrupu həmsədrlərinin ikili standartlardan çıxış etməsi tənqid olunmuşdur.

Noyabrın 8-də Şuşanın işğaldan azad olunması münasibətilə 50 siyasi partiya Prezident, Müzəffər Ali Baş Komandanı təbrik edərək, bu qələbəni illərlə yürüdülmüş müdrik siyasətin, siyasi uzaqgörənliyin, iqtisadi islahatların, xalqın iqtidara göstərdiyi yüksək etimadın, xalq-dövlət vəhdətinin ən ali təcəssümü olduğunu bildirmişlər. Azərbaycanın yaxın siyasi tarixində ilk dəfə olaraq radikal müxalif qanadı təmsil edən AXCP və Müsavat rəhbərləri də qazanılmış qələbə münasibətilə Müzəffər Ali Baş Komandanımızı, milli Ordumuzu və Azərbaycan xalqını təbrik etmiş, onları qələbənin əsas müəllifləri adlandırmışlar.

Azərbaycanın müstəqillik tarixində fəaliyyətdə olan siyasi partiyaların əksəriyyətinin iştirakı ilə ilk dəfə keçirilən görüşlər, qəbul edilən birgə müraciət və bəyanatlar birmənalı olaraq siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edir. Real praktikada bəzən eyni siyasi cinahda olan iki partiyanın öz aralarında dialoq qura bilmədiyini nəzərə alsaq, 52 real siyasi partiyadan 51-nin bir araya gəlməsi, ümummilli məsələləri müzakirə edərək vahid mövqe ortaya qoyması ciddi nəticədir. Bu, dövlətçilik uğrunda birləşməyin, milli vəhdətin bariz nümunəsi, həm də aparılmış ardıcıl, gərgin, məqsədyönlü fəaliyyətin nəticəsidir. 1990-cı illərdə Ermənistan-Azərbaycan münaqişəsinin daxili siyasi mübarizə alətinə çevrilməsinin bizi hansı fəlakətlərlə üz-üzə qoyduğunu unutmamalıyıq. Qazanılmış tarixi Qələbə münasibətilə xalqa müraciətində də Prezident İlham Əliyev bütün siyasi partiyaların vahid milli hədəf naminə birləşməsini xüsusi qeyd etmişdir: "Hətta fərqli siyasi baxışlara malik olan, bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə yüksək şüur nümunəsi göstərdilər. Dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz".

Burada haşiyə çıxaraq yada salmaq istəyirəm ki, Prezident İlham Əliyev hələ 2000-ci illərin əvvəllərində AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri olanda ümummilli hədəflər naminə siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir kəslə sinerji ruhu ilə işləməyin, həmrəy olmanın nümunəsini təqdim etmişdi. Prezident seçildikdən sonra da dediyi "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" sözləri həm də keçmiş siyasi opponentlərinə verilmiş aydın və güclü bir mesaj idi. Çox təəssüf ki, Prezidentin mesajı o zaman narıncı qiyafəyə üstünlük verən kəsim tərəfindən lazımınca dəyərləndirilməmişdir.

Ölkədə aparılan iqtidar-müxalifət dialoquna töhfə vermək məqsədilə çoxlu sayda müxtəlif siyasi partiya fəallarının və tanınmış ictimaiyyət nümayəndələrinin özlərinin və ailə üzvlərinin tibbi və ya digər şəxsi problemlərinin həllinə kömək edilmişdir. Partiyaların ofislə təmin edilməsi üçün ilk dəfə olaraq addımlar atılmışdır. Sabit siyasi mühitin dəstəklənməsi və siyasi partiyaların bölgələrdə normal fəaliyyətinin təmin olunması üçün şöbə tərəfindən mütəmadi qaydada yerli icra orqanları ilə iş aparılır, bütün siyasi qüvvələr üçün bərabər şəraitin yaradılması məqsədilə siyasi partiyaların fəallığının təşviqi istiqamətində müvafiq tədbirlər görülür.

Siyasi partiyaları respublikanın ictimai-siyasi həyatında daha yaxından iştiraka cəlb etmək məqsədilə "Azərbaycan", "Yeni Azərbaycan, "İki sahil", "525-ci" və "Ədalət" qəzetlərində, İctimai Televiziya, "Xəzər", "Space", ARB və "REAL TV" televiziya kanallarında müvafiq mövzular üzrə çıxışları şöbə tərəfindən təmin edilir.

Novruz bayramı, 28 May - Respublika Günü, 18 oktyabr Müstəqillik Günü, 9 noyabr Bayraq Günü, Şuşanın azad olunması münasibətilə Prezidentlə 50 siyasi partiyanın rəhbərləri arasında qarşılıqlı bayramlaşma ölkədə yeni, mütərəqqi siyasi mədəniyyətin təşəkkülünü göstərir.

Prezident BMT Baş Assambleyasının 75-ci sessiyasının iclasında çıxış edərkən də ölkənin bütün siyasi qüvvələrinin dialoq təşəbbüslərini dəstəklədiyini bildirərək demişdir: "Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafının təmin olunması işinə xidmət edəcəkdir". Sitatdan da göründüyü kimi, hakimiyyət dialoqa sırf Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı ümummilli mövqe müəyyən etmək vasitəsi kimi yanaşmır, - hərçənd bu, özlüyündə mühüm məqsəddir, - həm də dövlətimizin gələcək inkişafı, siyasi sistemin gücləndirilməsi üçün dialoqun davam etdirilməsində maraqlıdır.

Yaradılmış süni əngəllərin aradan qaldırılması nəticəsində uzun illərdən sonra 6 yeni siyasi partiya qeydə alınmışdır. Uzun müddət obyektiv və subyektiv səbəblərdən qurultayları çağırılmayan 11 siyasi partiyanın videokonfrans formatında qurultayı keçirilmiş və nəticələri dövlət qeydiyyatına alınmaqla onların fəaliyyətində legitimlik təmin edilmişdir.

Atılan bütün addımlar ölkədə çoxpartiyalı sistemin inkişaf etdirilməsinə yönəlmişdir. Əlbəttə ki, dövlət partiyalara süni nəfəs verməklə siyasi palitranın rəngarəng görünməsinə nail olmaq niyyətindən uzaqdır. Azərbaycan hakimiyyəti vətəndaşların siyasi həyatda iştirakı, siyasi birliklərdə təmsil olunmağa təşviq edilməsi, seçki və partiya institutunun təkmilləşməsi üçün ortaya güclü iradə qoymuşdur. Siyasi partiyalarla qurulan konstruktiv əməkdaşlıq, iqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində müzakirələr vasitəsilə inkişaf etdirilməsi daxili siyasi mühitdə yeni mərhələnin başlandığından xəbər verir.

Bu ilin fevralından etibarən başlamış danışıqlar və partiyalararası konstruktiv əməkdaşlığın qurulması prosesindən özünü kənara çəkən Azərbaycan Xalq Cəbhəsi Partiyası və özünü "Milli Şura" adlandıran qurum olmuşdur. Ölkənin siyasi rəhbərliyi tərəfindən yeni siyasi islahatlar kursu təqdim olunmasına, yeni konfiqurasiya elan edilməsinə, dialoq təklifləri səsləndirilməsinə, Prezident Administrasiyasının müvafiq strukturunun təşəbbüslərinə baxmayaraq, təəssüf ki, AXCP və onun yandaş qurumu olan "Milli Şura" inadla siyasi dialoqdan yayınmışdır. Bu, əslində, Azərbaycanda guya demokratiya sahəsindəki çatışmazlıqlar olmasını siyasi təzyiq məqsədilə istifadə etmək istəyən müəyyən xarici dairələrə bəhanələr yaratmağa xidmət edir.

Yaranmış yeni sağlam mühit təşəbbüskar gənclərin siyasi birliklərdə iştirakını artıracaq, eyni zamanda, sağlam rəqabət aparmağa qabil olmayan qüvvələr siyasi səhnəni gec-tez tərk edəcəklər. Prezident İlham Əliyev deyib: "Mən yeni siyasi islahatlar proqramını təqdim etmişəm, o, bütün siyasi partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənib... Biz siyasi dialoqun çox aktiv fazasındayıq".

## Koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan nümunəsi

Bu il bəşəriyyəti ciddi bir bəla - koronavirus pandemiyası təhdid etməkdədir. Bu ümumbəşəri bəla Azərbaycandan da yan ötmədi. Lakin işin düzgün təşkili, dövlətin dərhal müdaxiləsi sayəsində Azərbaycan qlobal bəladan mümkün qədər az itki ilə çıxmağa çalışır. Dövlətimizin başçısının göstərişi ilə koronavirusun yayılmasının qarşısını almaq məqsədilə çevik və vacib qabaqlayıcı tədbirlər görülmüş, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmış, vaxtında sosial təcrid tədbirləri, eləcə də xüsusi karantin rejimi tətbiq edilmiş, koronavirus xəstələrinin ödənişsiz müalicəsi üçün onlarla xəstəxana ayrılmış, müasir modul tipli 11 xəstəxana və 2 hospital, 2 tibbi maska fabriki istifadəyə verilmiş, ölkəyə virusun diaqnostikası və müalicəsi üçün zəruri olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar gətirilmişdir. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Prezident çıxışlarında qeyd etmişdir ki, dövlət üçün prioritet məsələ insanların sağlamlığı, həyatı və sosial müdafiəsidir.

İqtisadi sabitliyin təmin edilməsi və məşğulluqla bağlı problemlərin həlli üçün 3,5 milyard manatdan artıq sosial-iqtisadi dəstək paketi qəbul olunmuşdur. Dövlətimizin başçısının təşəbbüsü ilə təsis edilmiş Koronavirusla Mübarizəyə Dəstək Fonduna Prezidentin ehtiyat fondundan 20 milyon manat ianə ayrılması, eləcə də Prezidentin və Birinci vitse-prezidentin özlərinin birillik əməkhaqqı məbləğlərini ianə etmələri xüsusi rəğbət doğurmuşdur. Pandemiyanın yaratdığı çətinlikləri aradan qaldırmaq məqsədilə dünyanın 150 ölkəsi kredit üçün müraciət etdiyi halda, Azərbaycanın iqtisadi potensialı bu bəlaya qarşı öz gücüylə mübarizə aparmağa imkan verir. Eyni zamanda, Azərbaycan ÜST-ə könüllü ianə ayırmış, 30-dan artıq dövlətə humanitar yardım göstərmişdir.

Azərbaycan Prezidenti koronavirusa qarşı beynəlxalq mübarizənin gücləndirilməsi məqsədilə çoxsaylı təşəbbüslər irəli sürmüş, dünya ölkələrini qlobal həmrəyliyə səsləmişdir. Prezidentin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası dövlət və hökumət başçılarının, Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşləri keçirilmişdir. Prezidentin qeyd olunan məqsədlə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təşəbbüsü də dəstəklənmişdir. Pandemiya şəraitinə baxmayaraq keçirilən çoxsaylı beynəlxalq tədbirlərin Azərbaycanın dünya miqyasında nüfuzunun artmasında xüsusi əhəmiyyəti vardır.

## Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi modeli

Sentyabrın sonlarından Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ədalətin bərpa olunması üçün müqəddəs tarixi savaşa başlamışdır. Danışıqları pozmaqla, Azərbaycana qarşı müxtəlif təxribatlar törətməklə Ermənistan özü bu tarixi müəyyənləşdirdi. İkinci Qarabağ müharibəsinin 44-cü günü, noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanat münaqişənin həlli istiqamətində son nöqtə oldu. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, məqsəd qan tökmək və ərazi qəsb etmək deyil, düşməni ədalətli sülhə məcbur etməkdir. Adətən, uğurlu döyüşlər uğurlu diplomatik danışıqlarla yekunlaşır. Azərbaycan diplomatiyasının belə danışıqlar aparmağa qadir olduğunun noyabrın 10-da bir daha şahid olduq. Cəmiyyətimiz "Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır", - deyən Müzəffər Ali Baş Komandanın ətrafında sıx birləşib, bu inam, bu həmrəylik də Qələbəmizin əsas rəhnidir.

Ardı Səh. 7

# Azərbaycan dövlətçiliyinin islahatlar və zəfər mərhələsi

Əvvəli Səh. 6

Müzəffər Ali Baş Komandamızın rəhbərliyi ilə hər günü, hər saatı, hər anı qızıl hərflərlə yazılmış tarixə çevrilən 44 günlük Vətən müharibəsinin yekunlarını, Qələbəni şərtləndirən amilləri Prezidentimizin müxtəlif çıxışlarında səsləndirdiyi fikirlər əsasında belə ümumiləşdirə bilərik:

X Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanat ölkəmizə maksimum sərf edən sənəddir. Noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktı imzaladı;

X Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail oldu;

X Ermənistan əvvəlcə imtina etsə də, sonradan üçtərəfli bəyanatı imzalamaqla müstəqil siyasi iradəsinin olmadığını, forpost olduğunu bir daha təsdiqlədi;

X Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu, Azərbaycan bu il sentyabrın 27-də başlamış İkinci Qarabağ müharibəsini müvəffəqiyyətlə, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında böyük zəfərlə başa vurdu;

X Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. İqtisadi müstəqilik ordumuzu gücləndirmək üçün imkan yaratdı, Qələbə qazanmaq potensialımızı təmin etdi;

X Azərbaycanda bu və ya digər maraqları olan qüvvələr dövlətimizin, Ordumuzun gücünü, iradəsini gördü, "hər kəs bizim dəmir yumruğumuz nədir, anladı";

X Bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Qarabağa heç bir status, inzibati muxtariyyət verilmədi;

X Hakimiyyətdə olduğumuz illər ərzində beynəlxalq vəziyyət düzgün təhlil edilərək ölkənin güclənməsi yolunda ardıcıl addımlar atıldı, lazım olan anda düşməni məğlub etmək üçün zərbə endirildi;

X Azərbaycan müharibənin əvvəlcədən sülhə məcburetmə əməliyyatı olduğunu, qantökmə və torpaq qəsb etmək məqsədi güdmədiyini deyirdi və bəyanatın Ermənistan tərəfindən imzalanması sülhə məcburetmə əməliyyatının uğurla bitməsini təsdiqlədi;

X İşğal edilmiş ərazilərimizdə etnik təmizləməyə məruz qalmış azərbaycanlılar o torpaqlara qayıdacaq, Şuşada və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlarımızın 30 illik həsrətinə son qoyuldu;

X Bəyanata uyğun olaraq Ermənistan qoşunlarının Ağdam, Kəlbəcər və Laçın bölgələrindəki işğalçı qoşunlarını dağlıq və keçilməsi çətin olan, istehkam-sığınacaq sahələri yaradılmış ərazilərdən təxliyə edilməsi ilə Azərbaycan böyük insani-humanitar itkilərin qarşısını alaraq, bu bölgələri əlavə qan tökmədən, diplomatik qələbə hesabına geri qaytardı;

X Naxçıvanın 30 illik blokadası bitir, eyni zamanda, türk dünyasının yerüstü tranzit-rabitə əlaqələri bərpa olunur. Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı;

X Dağlıq Qarabağ və işğal edilmiş ətraf ərazilərin erməniləşdirilməsi üçün aparılmış bütün təbliğati işlər, köçürmə siyasəti puça çıxarıldı;

X Ermənistan bu 30 ilə yaxın müddətdə müstəqil ölkə ola bilməyib, bu gün də müstəqil deyil. İşğalçılıq siyasəti Ermənistanı uçuruma apardı;

X Ermənilərin yaratdıqları mif dağıldı, onların "yenilməz" ordusu məhv oldu, fərarilik başladı. İkinci Qarabağ müharibəsi iki ordunun, iki cəmiyyətin nə qədər fərqli dəyərlərin daşıyıcıları olduğunu da nümayiş etdirdi;

X Azərbaycan Ermənistan istisna edilməklə bütün qonşuları ilə normal münasibətlərə malikdir. Türkiyə bütün müharibənin gedişində birmənalı olaraq Azərbaycanı dəstəklədi, Gürcüstan və İran isə hava məkanlarını Ermənistanın üzünə bağladı;

X Müharibə göstərdi ki, Azərbaycan xalqı böyük, vətənpərvər və dəmir iradəyə malik xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Xocalı qurbanlarının, şəhidlərimizin də qisası alındı;

X Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bəzi mənfur xarici dairələrin öz çirkin planlarını həyata keçirmələrinə imkan vermədi. Azərbaycanın gücü milli birlikdədir, dini, etnik, regional, siyasi və sosial mənsubiyyətindən asılı olmayaq bütün Azərbaycan xalqı birlik, həmrəylik göstərib Vətən naminə, Qələbə naminə Müzəffər Ali Baş Komandanın ətrafında yumruq kimi birləşdi.

Hələ 2016-cı il Aprel döyüşlərindən sonra Azərbaycan Prezidenti Dağlıq Qarabağ məsələsində qəti və dönməz mövqeyini ifadə edərək düşmənə ciddi xəbərdarlıq edirdi: "Hərbi güc də, iqtisadi potensial da, siyasi nüfuz da bizdədir... Biz məsələni istədiyimiz kimi həll edəcəyik".

Hər bir Azərbaycan vətəndaşına sevinc bəxş edən hərbi nailiyyətlər ona görə əldə edilir ki, istər daxili opponentlərin, istərsə də müəyyən beynəlxalq qurumların tənqidlərinə baxmayaraq, uzun illər ərzində Ermənistan kimi təcavüzkarın mövcudluğu nəzərə alınaraq müdafiə xərcləri yüksək səviyyədə saxlanmış, ordu ən müasir silah-sursat və hərbi texnika ilə təchiz edilmiş, silahlı qüvvələrin kadr hazırlığına xüsusi diqqət yetirilmiş, gənc zabit və əsgərlərimiz müxtəlif beynəlxalq missiyaların tərkibində bilik və bacarıqlarını təkmilləşdirmişlər. 2003-cü ildə Azərbaycanın hərbi xərcləri 135 milyon ABŞ dolları idisə, 2020-ci ilin dövlət büdcəsi xərclərinin 3 milyard 853,6 milyon manatı müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə yönəldilmişdir. Builki müdafiə xərclərimiz Ermənistanın analoji xərclərindən 3 dəfədən çoxdur. Geniş çeşiddə yerli hərbi məhsulların istehsalında qazanılan nailiyyətlər də Ermənistan üzərində hərbi üstünlüyümüzün artmasına birbaşa təsir etmişdir.

Beləliklə, İkinci Qarabağ müharibəsinə daxil olarkən Azərbaycanın yüksək təchizatlı ordusu, hərb elmini yaxşı mənimsəmiş, hətta ona yeniliklər gətirə bilən ali zabit korpusu, ən əsası, bu ordu ilə qələbə qazanmağı, Dağlıq Qarabağ problemini hərbi-siyasi yolla, milli maraqlarımız çərçivəsində həll etməyi qarşısına məqsəd qoymuş Ali Siyasi İradə var idi. Ordumuzun şanlı zəfərlərində Prezident İlham Əliyevin Ali Baş Komandan qətiyyəti ilə bərabər, əsl böyük dövlət xadiminə, strateji təfəkkürlü siyasətçiyə xas müdrik qərarları da mühüm rol oynadı: "İndi Ermənistan dalan ölkəyə çevrilib. Biz gizlətmirik ki, səylərimiz nəticəsində Ermənistanı bütün regional layihələrdən təcrid etmişik və bu siyasət öz nəticələrini verməkdədir".

İki əsrə yaxındır ki, Azərbaycan tarixi torpaqlarını itirə-itirə gəlib. 2020-ci ilin 27 sentyabrından isə tam fərqli bir Azərbaycanın doğuluşu yaşanır. Oktyabrın 4-də Cəbrayıl, 17-də Füzuli, 20-də Zəngilan, 25-də Qubadlı, noyabrın 8-də Şuşa təxminən üç onillikdən sonra düşmən əsarətindən qurtuldu, noyabrın 10-da Ermənistan kapitulyasiya sənədini imzalamağa məcbur oldu, noyabrın 20-si Ağdam, noyabrın 25-i Kəlbəcər, dekabrın 1-i Laçın rayonları Azərbaycanın yuridiksiyasına qaytarıldı. Hər il rayonlarımızın işğal günlərini qeyd edirdiksə, bundan sonra azad olunma və Vətən müharibəsində Qələbə günümüzü qeyd edəcəyik. Bu tarixi Qələbə İlham Əliyevi, sözün həqiqi mənasında, Milli Liderə çevirib. O, xalqın ən ümdə gözləntilərini doğruldan praqmatik siyasi xadim, qətiyyətli Ali Baş Komandan, mahir diplomatdır. Vaxtilə Xalq Cümhuriyyətinin elan olunması, Bakının xilas edilməsi ilə tarix səhnəsinə yeni bir siyasi etnos kimi daxil olmuşduqsa, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız qələbələr Ümummilli Liderin dediyi "Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq" sözlərini gerçəkləşdirdi. Azərbaycan qalib, məğrur bir gənc etnos, möhtəşəm dövlət kimi yenidən dünyaya gəlir.

Prezidentin yazının əvvəlində xatırlatdığımız "Mən hər bir azərbaycanlının prezidentiyəm" fikri indi ümumxalq sevgisinin ifadəsinə çevrilib. Bu, Müzəffər Ali Baş Komandana, xalqı rifahlı gələcəyə aparan Milli Liderə olan sevgidir. Hələ AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri olanda gərgin fəaliyyəti sayəsində ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən, Ermənistanın işğalçılıq siyasətini qınayan hüquqi aktların qəbuluna nail olan, sonradan bu fəaliyyəti daha mühüm beynəlxalq kürsülərdə davam etdirən, müxtəlif nüfuzlu beynəlxalq və regional təşkilatlarda Azərbaycanın haqq işini müdafiə edən qərar və qətnamələrin qəbuluna nail olan müdrik diplomata, Münhen Təhlükəsizlik Konfransında, Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda, Aşqabadda, Vyanada Ermənistan baş naziri Nikol Paşinyanı öz çıxışları ilə susduran milli təəssübkeş dövlət xadiminə, Vətən müharibəsini həm döyüş meydanında, həm də diplomatik danışıqlarda qalibiyyətlə başa çatdıraraq düşməni diz çökməyə məcbur edən Qarabağ Xilaskarına bəslənən sevgidir.

Ermənistan rəhbərliyi "Dağlıq Qarabağın müstəqilliyinin tanıdılması üçün" müraciət etdiyi heç bir dövlət və beynəlxalq qurumdan cavab ala bilmədi, çünki o qurumlar dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıyan, Ermənistanın işğalçılıq faktını təsdiqləyən hüquqi aktlar qəbul etmişlər. Bu gün biz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Türkiyənin digər dövlət və hökumət rəsmilərinin, tanınmış siyasətçilərinin - bütövlükdə türk cəmiyyətinin Azərbaycanı birmənalı olaraq dəstəklədiyinə görə sonsuzadək minnətdarıq. Azərbaycanın mübarizəsində daim xalqımızın yanında yer alan Türkiyə ilə bağlı məsələlərdə də biz Prezidentin qətiyyətli mövqeyinin, Türkiyə nümayəndələrinin olmadığı diplomatik masalarda "mən buradayam" deyərək qardaş ölkəni sonadək müdafiə etməsinin dəfələrlə şahidi olmuşuq. Bu, bir tərəfdən dövlət rəhbərinin Ümummilli Liderin irəli sürdüyü "Bir millət, iki dövlət" konsepsiyasına, digər tərəfdən Azərbaycanı bölgədə sabitləşdirici, əsas söz sahibi olan ölkəyə çevirmək kursuna sadiqliyinin sübutudur.

Paralel olaraq ölkədə sosial gərginlik ocaqları aradan qaldırıldı, dialoq, siyasi əməkdaşlıq mühiti yarandı, iqtisadiyyat dəfələrlə böyüdüldü, regionlar, qeyri-neft sektoru inkişaf yoluna qədəm qoydu, yeni iş yerləri yaradıldı, ərzaq asılılığına son qoyuldu, ölkənin geosiyasi çəkisi artırıldı, Ermənistanın siyasi, iqtisadi, hərbi təcridi gücləndirildi, regionun və dünyanın enerji təhlükəsizliyinə töhfə verən layihələr reallaşdı, nəhayət, düşməni sülhə məcbur etmək üçün hərbi-siyasi yola üz tutuldu. Vətən müharibəsi modelini tətbiq etmək üçün necə bir gərgin və uzun məsafə qət edildiyi bu günlər daha aydın görünür. Prezident qeyd edir: "Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı".

Ulu Öndər 2003-cü il oktyabrın 1-də prezident seçkilərində xalqa müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsini inkişaf etdirərək yeni, modern Azərbaycan dövləti qurmuşdur. Ümummilli Lider Azərbaycanı parçalanmaq, dağılmaq, siyasi xəritədən silinmək təhlükəsindən xilas edib davamlı inkişaf yoluna çıxarmışdısa, İlham Əliyev Azərbaycanı qüdrətli bir dövlətə çevirməyi, dövlətin bütün resurslarını ərazi bütövlüyümüzün bərpası üçün səfərbər edib böyük uğurlar əldə etməyi bacardı. Prezidentin noyabrın 8-də Şəhidlər xiyabanında etdiyi çıxışda dediyi kimi, bu vəsiyyət yerinə yetirildi, Şuşa azad olundu, noyabrın 10-da isə Vətən müharibəsi Qələbə ilə başa çatdı. Müzəffər Ali Baş Komandanın vurğuladığı kimi, Ordumuzun parlaq Qələbəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsində xeyirin, dağıdıcılıq stixiyası üzərində qurucu ruhun qazandığı qələbədir. Azərbaycan işğalçı vandalların dağıtdığı bütün infrastrukturu yenidən bərpa edəcək, Qarabağın dağıdılmış bütün dini -tarixi-mədəni abidələri dövlətin himayəsi altında olacaq, Qarabağ yenidən Vətənimizin gur inkişaf edən dilbər guşəsinə çevriləcək. Azərbaycan xalqı döyüş meydanlarında olduğu kimi, quruculuq sahəsində də bir daha öz böyüklüyünü göstərəcək.

Yazını Azərbaycan Prezidentinin Respublika Günü münasibətilə çıxışında səsləndirdiyi, bu gün hər bir azərbaycanlının altına imza atmağa hazır olduğu fikirləri ilə bitirirəm: "Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, biz dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik". Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu yolda hər birimizə yeni uğurlar arzulayıram.

***Ədalət Vəliyev,***
***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri***

# 1 DEKABR: Laçının erməni işğalına SON!

***Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyi arasında noyabrın 10-da imzalanan birgə bəyanata əsasən, Ermənistanın işğalçı qüvvələri dekabrın 1-də Laçın rayonunu tərk edəcək və rayon Azərbaycan Ordusunun nəzarətinə keçəcək. Başqa sözlə, Laçının 28 ildən çox davam edən işğalının bitməsinə saatlar qalır.***

SİA xəbər verir ki, Laçının Azərbaycanın nəzarətinə qaytarılması ilə bağlı dövlət strukturlarında müvafiq hazırlıq işləri aparırlar. Müvafiq qurumlar tərəfindən rayon mərkəzi Laçın şəhəri üçün, həm də rayonun ayrı-ayrı kəndləri üçün nişanlar hazırlanıb. Müqavilənin 6-cı bəndinə uyğun olaraq rayonun mərkəzi Laçın şəhərindən keçməklə Dağlıq Qarabağın ərazisinə humanitar yüklərin və bu ərazidə yaşayan erməni əhalinin hərəkəti üçün dəhliz saxlanılıb.



## Laçın rayonu haqqında nə bilirik?

Laçın rayonu 18 may 1992 ci İldə Erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Rayonda bir şəhər, bir qəsəbə (Qayğı qəsəbəsi), 125 kənd olmuşdur. Laçın rayonu Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonu ilə, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon mərkəzinin Bakı şəhəri ilə şosse yolla ara məsafəsi 450 km, Xankəndi dəmir yolu stansiyası ilə ara məsafəsi isə 60 km-dir. 2020-ci il noyabrın 10-u olan sülh müqaviləsinə əsasən 1 dekabr Ermənistan silahlı qüvvələri Laçını boşaldıb Azərbaycan Respublikasına təhvil verməlidir.

## Qısa tarixi

Laçın tarixi keçmişi zəngin olan bir ərazidir. Rayonun tarixi abidələri hələ eramızdan əvvəl I-II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndirlər.

XII əsrin sonu XIII əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində alban Xaçın knyazlığı yaranmışdır. Bu knyazlıq eləcə də indiki Laçın bölgəsini əhatə edirmiş. Ona görə də Dağlıq Qarabağın digər bölgələrində olduğu kimi, bu ərazilərdə də Xaçın adı ilə bağlı yeni adlar, toponimlər əmələ gəlməyə başlamışdır. Sonralar Xaçın knyazlığının ərazisində Xaçın da daxil olmaqla Qarabağ-alban məlikləri Xaçın, Vərəndə, Dizaq, Gülüstan (Talış) məlikliyi ilə yanaşı, Çiləbörd məlikliyi də yaranmışdır.

1828-ci il Rusiya-İran müharibələrindən sonra bağlanan Türkmənçay müqaviləsinə əsasən, bölgə Şimali Azərbaycanın tərkibində Rusiyaya qatılıb. Rusiyanın himayəsi altında Cənubi Qafqaza Osmanlı dövlətindən və İrandan ermənilərin kütləvi şəkildə köçürülüb məskunlaşdırılmasına başlandı. Ancaq Laçın bölgəsinə ermənilərin məskunlaşdırılması mümkün olmadı. Azərbaycanda xanlıqlar ləğv edildikdən sonra, Laçın bölgəsi 1829-cu ildən yeni yaradılan Qarabağ əyalətinə qatılıb, 1868-ci ildən isə indiki Laçın yeni yaradılan Zəngəzur qəzasına qatılır. Zəngəzur qəzası Yelizavetpol quberniyasına (Gəncə quberniyası) daxil idi, 1918-ci ildən 1922-ci ilədək isə Qarabağ quberniyasının tərkibində olmuşdur.

1905-1907 və 1914-1920-ci illərdə Laçının da daxil olduğu Zəngəzur bölgəsində silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində təxminən yarım milyon müsəlman həlak olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra da Qarabağı və Zəngəzuru mənimsəmək üçün ermənilərin ərazi iddiaları nəticəsində kütləvi qırğınlarla davam edir. Erməni komandanı Andronik nə yolla olursa-olsun öz silahlı qüvvələri ilə bərabər Gorus, Laçın, Şuşa istiqamətindən Qarabağa daxil olmaq, oranın erməni əhalisini Azərbaycan hökumətinə qarşı qaldırmaq, təxribatlar törətmək və bölgədə itaətsizlik yaratmaq istəyirdi. Bu məqsədlə Andronik bir neçə minlik ordu ilə Zabux kəndini keçərək Laçın istiqamətində irəliləməyə başladı. Bu məsələdən əvvəlcədən xəbər tutan, bölgənin nüfuz sahiblərindən biri, Qarabağın general qubernatoru Xosrov bəy Sultanovun qardaşı Sultan bəy Sultanov, öz partizan dəstəsi ilə Laçın-Zabux yolundakı bir dərədə pusqu quraraq Andronikin qoşununu mühasirəyə saldı. Burada təqribən bir günlük çox qanlı döyüşlər getdi. Bu döyüşlər zamanı general Andronik demək olar ki, bütün qüvvəsini itirərək bir neçə nəfərlə güclə qaçmağa imkan tapdı. Dərə bu döyüşdən sonra xalq arasında "Qanlı dərə" adlandırıldı.

## Birinci savaş

Birinci Qarabağ müharibəsinin aktiv fazası Bişkekdə imzalanan atəşkəsdən sonra dayandı. Bundan istifadə edən Ermənistan hakimiyyəti Laçın şəhərinin və rayonun bir neçə ətraf kəndin ermənilərlə məskunlaşdırılmasına dair məxfi əmr verdi. Ermənistan bununla Dağlıq Qarabağı aparan yeganə yolun keçdiyi strateji mühüm ərazini nəzarətdə saxlamağa çalışırdı. Ermənistan o vaxt hesab edirdi ki, Laçın rayonunun dörd yaşayış məntəqəsinin məskunlaşdırılması kifayətdir. Lakin ermənilərin planları daha böyük idi. Onlar iddia edirlər ki, işğal etdikləri ərazilərin hamısında məskunlaşmağa haqları var, çünki bu ərazilər "qədim erməni torpaqlarıdır". Nəticədə 1995-ci ildə Laçın rayonunun 4 yox, 12 kəndində ermənilər qanunsuz məskunlaşmışdı. 2004-cü ildə isə Laçın və kəndlərində, o cümlədən digər ətraf rayonlarda yaşayan ermənilərin sayı 13.500-ə çatmışdı.

## Təbiəti

Səthi dağlıqdır və şimal hissəsi Qarabağ silsiləsinin cənub-qərb yamacında, şimalı Mıxtökən silsiləsinin cənub-çərq yamacında, cənub-qərbi Qarabağ yaylasındadır. Ən hündür nöqtəsi Qızılboğaz dağıdır (3594m). Çayları Həkəri və onun qollarıdır. Əsasən çimli, dağçəmən, qəhvəyi dağ-meşə və karbonatlı dağ-qara torpaqlara malikdir. Bitki örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs, fıstıq), subalp və alp çəmənliklərindən ibarətdir. Heyvanat aləminə qayakeçisi, çölsiçanı, cüyür, çöldonuzu, sincab, süleysin və s. aiddirlər. Ərazinin çox yerində qışı quraq keçən mülayim isti və soyuq iqlim üstündür. Orta temp-r yanvarda ?10 °C-dən 0 °C-yədək, iyulda 10-22 °C-dir. İllik yağıntı 600-900 mm-dir. Rayonun cəmi torpaq sahəsi 166488 hektardır. Ondan da 75781 hektarı kənd təsərrüfatına yararlı, 12102 hektarı isə əkin yeridir.

## Ermənistan tərəfindən işğalı və nəticələri

Ermənistan silahlı qüvvələri tərəfindən Laçın rayonunun işğalı zamanl ermənilər tərəfindən 264 nəfər şəhid edilmiş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayonun 6 Milli Qəhrəmanı vardır. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə ələqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.Rayonun 65507 nəfər əhalisi Azərbaycanın 59 şəhər və rayonlarına, "Taxta-körpü" qışlaqlarındakı 84 obaya məcburi köçkün düşmüşdür.

# "Fransa Senatının qərarı yazılmış kağız parçası Azərbaycan diplomatiyasına xəbərdarlıq siqnalı olmalıdır"

*Elmar Məmmədyarovun səfirləri Eldar Həsənov, Elmira Axundova kimilər ticarət fəaliyyəti ilə diplomatik missiyanın fərqini səhv salırlar*




**Rasim Quliyev, Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri**

Fransa senatında Azərbaycanın Dağlıq Qarabağ ərazisi ilə bağlı ərazi bütövlüyümüzə hörmətsizlik və beynəlxalq hüququn kobud şəkildə pozulması ilə müşaiət olunan qətnamənin qəbul edilməsi Azərbaycan diplomatiyasını oyadıb çevik hücum taktikasına keçməyin vaxtının çatdığı barədə xəbərdarlıq olmalıdır. Necə ki, Ali Baş Komandan qəhrəman, peşəkar Azərbaycan əsgəri ilə çevik, ağıllı hərbi-taktiki əks hücumla müasir dünyanın ən sürətli, intellektual, yüksək texnoloji müharibəsi nümunəsini yaradaraq döyüş sahəsində, hərb meydanında zəfər çaldı, indi növbə diplomatiyanındır.

Sözsüz ki, Azərbaycan Prezidentinin beynəlxalq siyasəti və xarici siyasət strategiyası bugünkü Azərbaycanın dünyadakı nüfuzunu, siyasi çəkisini, iqtisadi gücünü şərtləndirir və nümayiş etdirir. Ancaq diplomat kadrların vətənpərliyi, peşakarlığı və çevik fəaliyyəti qətiyyən hərbi zəfərimizi şərtləndirən heç parametrlə səsləşmir, hətta müqayisə belə olunmur.

Əgər Elmar Məmmədyarov bu yaşa qədər azərbaycanlı adı ilə qediyyatdan keçib məsul bir vəzifə daşıyıbsa və bu xalqın, bu millətin dilində danışmağı, yazıb oxumağı öyrənə bilməyibsə onun təfəkkürü düşüncə tərzi, milli bağlılığı, vətənpərvərliyi, milli ruhu necə ola bilər və yaxud necə formalaşa bilərsə bu açıb sual və bəlli cavabdır.

Həmin baş diplomatın peşəkarlıq, vətənpərvlik keyfiyyətləri də ən kritik, ən məsuliyyətli məqamlarda Azərbaycanın Rusiya və Ukrayna səfirlərinin timsalında özünü açıq biruzə verdi. Azərbaycanın Ukraynadakı səfiri bircə dəfə nəsə demək istədi "Quş buraxdı" və onunla da bilindi ki, Elmira Axundova səfir imiş və Rusiyaya xüsusi simpatiyası var imiş. Ya da Eldar Həsənov.

Diplomatlarımızın xeyli hissəsi, göründüyü kimi nəinki çevik, qabaqlayıcı, təşəbbüskarlıq, hücüm taktikası, heç müdafiə taktikasını da aktiv fəaliyyət sərgiləyə bilmirlər. Fransa senatından Fransa Respublikasının yaxın tarixdə dünyanın müxtəlif xalqlarına qarşı törətdiyi işğalçılıq, müstəmləkəçilik, soyqırım faktlarından utanacağını gözləməyə dəymez.

Fransa dövləti və senatı tarixdə fransızların digər xalqlara qarşı, müstəmləkəçilik və işğalçılıq faktlarından utansaydı bu gün işğalçı Ermənistanı Fransa Prezidenti səviyyəsində açıq aşkar dəstəkləyə bilməzdi. Deməli Fransanın münasibəti, siyasəti budur və bu formalaşmış münasibət nəzərə alınmaqla aktiv diplomatiya sərgiləməlidir.

1991-ci ildə Azərbaycan müstəqillik elan edəndən dörd ay sonra Fransa Azərbaycanın müstəqilliyini tanıyıb və 1990- cı illərdə dağılmış SSR-i məkanı uğrunda geosiyasi oyunda aktiv maraq nümayiş etdirməsinə rəğmən bugün regionda baş verən proseslərdə heç bir təsir imkanına malik deyil. Oyundan kənarda qalan Fransa məğlub kimi oyundan kənarlaşdırılmaq ərəfəsində, əslində faktiki vəziyyətini hansısa ucuz nömrələrlə pərdələməyə çalışır .Bir növ ABŞ prezidenti Donald Trampın vəziyyəti kimi uduzduğunu boynuna almaq əvəzinə, belə şərait yaratmağa çalışır ki, onu zorla kənarlaşdırsınlar. Fransa da elə davranır ki, Azərbaycan tərəfi onu həmsədirlikdən kənarlaşdırsın. Azərbaycan Respublikasının Ali Baş Komandanı əks-hücüm əməliyyatı ilə qısa zamanda sürətli qəti hərbi qələbəsi ilə regionda yeni geosiyasi vəziyyət yaratdı ki, Fransa bu prosesdə təsir imkanı və zamanı əldə edə bilmədi. Ermənistan hərbi-siyasi məğlubiyyəti ilə Fransanında regionda geosiyasi proseslərdə rolu və maraqları baxımından məğlubiyyəti çox oxşardır. Necə ki, işğalçılıq və soyqırım xarakteri oxşardır.

# Araik Arutyunyan: "Qarabağdan 600-dən çox cəsəd çıxarıldı"



"Qarabağdakı münaqişə bölgəsindən 600-dən çox ölən əsgər cəsədi çıxarılıb". SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri qondarma rejimin əldəqayırma prezidenti Araik Arutyunyan öz Facebook səhifəsində yazıb.

Məlumatda qeyd olunur ki, qondarma rejim rəhbəri itkin düşənlərin və hərbi əsirlərin bir qrup qohumu ilə görüş keçirib, görüşdə Rusiya sülhməramlı kontingentinin komandiri Rüstəm Muradov, Fövqəladə Hallar Komitəsinin direktoru Karen Sarkisyan da iştirak edib. "Dedim ki, Rusiya sülhməramlıları, Qırmızı Xaç və Fövqəladə Komitə arasında sıx əməkdaşlıq sayəsində bu müddət ərzində 600-dən çox cəsəd münaqişə zonasından çıxarılıb və işlər hər gün davam edir", deyə Arutyunyan Facebook səhifəsində paylaşıb.

*Ölkənin beynəlxalq nüfuzunun yüksəlməsində idmanın böyük rolu var. Bəzi ölkələr var ki, dünyada məhz idman sayəsində tanınıblar. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. 1-ci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi də ölkəmizin dünya standartlı idman infrastrukturuna malik olmasının qəbul edilməsi idi. Dövlətimiz bu sahəyə xüsusi diqqət ayırır və bunun nəticəsində bir çox idman növlərində böyük uğurlar qazanılır. Olimpiya oyunlarında, müxtəlif idman növləri üzrə dünya və qitə çempionatlarında qazandığımız uğurlar buna sübutdur. Amma bir idman növü var ki, dövlətin ən çox maliyyə ayırdığı sahə olmasına baxmayaraq, nəticə nəinki yoxdur, əksinə, ildənilə daha da zəifləyir. Bu idmanın şahı sayılan futboldur.*



# Yüz milyonlar hara getdi və futbolumuzu kim "öldürdü"

## Gürcüstan və Ermənistan futboluna bizdən dəfələrlə az vəsait xərcləndiyi halda onların yüksək nəticələr əldə etməsi, bizdə bu pulların mənimsənildiyini deməyə əsas verir

2003-cü ildə Azərbaycan futbolunda böyük ümidlər verən dəyişikliklər baş verdi. Ramiz Mirzəyev AFFA-nın rəhbəri seçildi, ölkə futboluna böyük pullar yatırılmağa başlandı, ölkə çempionatında 18 klub iştirak etdi. 2007-ci ildə Ramiz Mirzəyevin səhhətinin pisləşməsindən sonra faktiki olaraq Azərbaycan futbolunu AFFA-nın baş katibi Elxan Məmmədov- futbolumuzun "xaç atası" idarə etməyə başladı. 2008-ci ildə ARDNŞ-in rəhbəri Rövnəq Abdullayev AFFA prezidenti seçildi. Abdullayev-Məmmədov tandemi 12 ildir ölkə futboluna rəhbərlik edirlər. Onlar ölkə futbolunu şəxsi biznes sahəsinə çevirdilər. Bu ikilinin birgə rəhbərliyi dövründə futbol sahəsini cəmi 2 kəlmə ilə izah etmək olar- böyük pulların "havaya" sovrulması və tam rüsvayçılıq.

Vaxtilə 16, 18 klubdan ibarət ölkə çempionatımız, son illərdə 8 komandalıq "Bakı birilinciyi"nə və ya "Topaz" turnirinə çevrilib. 2008-ci ildə indiki AFFA rəhbərliyi işə başlayanda ölkə çempionatında bölgələrin çoxluq təşkil etdiyi 14 klub iştirak edirdi. Hər bir klubun sponsoru var idi, çempionata maraq böyük idi, azarkeşlər demək olar ki, bütün oyunlarda stadionları doldururlar. Lakin bu ikilinin işi nəticəsində sponsorlar da futbolumuzdan soyudular, azarkeşlər də.

Bu gün AFFA rəhbərliyindən bunun səbəbini soruşanda sponsorluqsuzdan, imkanlı şəxslərin və böyük şirkətlərin futbola yatırım etməkdə maraqsız olduğunu deyirlər. Halbuki, hər kəsə məlumdur ki, sponsorlar futbolumuzdan yan qaçmasının, küsməsinin əsas səbəbi, məhz indiki AFFA rəhbərliyidir. Məhz onların sponsorların qarşısına öz qaydaları ilə oynamaq şərti qoyduqlarından futbolumuza pul yatıran şəxslər bu sahədən getdilər, digərləri isə indi də yan qaçmağa çalışırlar. Avropada üzümüzü ağ edən klubların adına baxanda AFFA rəhbərliyinin ölkə futboluna nə qədər zərər vurduğunu görmək kifayət edir.

Avrokuboklardakı uğurlarımızın əsas payı "Qarabağ"ın və son mövsümlərə kimi daima Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanan "Qəbələ"nin payına düşür. Bu 2 klub xaric demək olar ki, digər klubların əksəriyyəti ya birbaşa ya da dolayı yolla AFFA prezidentinin və ya baş katibinin nəzarətindədir. Ölkə futbolunun "flaqman"ı sayılan "Neftçi" avrokubokların final mərhələsinə vəsiqə qazanan ilk klubumuz kimi tarixə düşdü, lakin bu komanda hazırki AFFA rəhbərliyinin faktiki nəzartinə keçəndən ayrılan maliyyə artsa da, qazanılan uğurlar dəfələrlə azalıb, paytaxt təmsilçisi inkişaf etməkdənsə deqradasiyaya uğrayıb.

Yığma komandalarımıza gəldikdə isə vəziyyət daha acınacaqlıdır. Abdullayev-Məmmədov tandemi düz 12 il başımızı əsas hədəfin "Avropa Çempionatı-2020" olduğu nağılı ilə qatdılar. Amma sonda məhz AVRO-2020-in seçmə mərhələsində tariximizin ən biabırçı nəticələrindən birinə imza atdıq, cəmi 1 xal toplaya bildik. Vaxtilə daha pis şəraitdə Portuqaliya ilə heç-heçə ilə qürurlanırdıqsa, indi bir vaxtlar "rahat 6 xal" gözü ilə baxdığımız Lüksemburqla heç-heçəni bayram edirik, buna görə futbolçularımıza mükafat ayrılır.

Mükafatlardan söz düşmüşkən, dünyada AFFA kimi biabırçı mükafatlandırma sisteminə malik 2-ci bir ölkə futbol federasiyası tapmaq çətindir. Əgər digər ölkələrdə yığma komandanın futbolçularına mükafat qarşıya qoyulan hədəfə çatdıqları üçün ayrılırsa, bizdə əksinədir. Misal üçün, son 10 gün ərzində Sloveniya ilə yoldaşlıq görüşündə 0:0 hesablı heç-heçəyə görə, və Millətlər Liqasının qrup mərhələsində Çernoqoriya və Lüksemburqla eyni hesablı bərabərliyə görə, yığma komandanın futbolçularının hər birinə 45 min manat mükafat ayrılıb. Xatırladaq ki, bu nəticələrdən sonra biz Millətlər Liqasının qrupundan növbəti mərhələyə çıxmaq şansı itirdik. Halbuki, əsas məqsəd məhz qrupdan çıxmaq idi.

Göründüyü kimi, AFFA futbolçularımız qarşıya qoyulan hədəfə çatmadıqları üçün mükafatlandırıb. Hər dəfə belə oyunlardan sonra azarkeşlərin ən çox tənqid etdikləri futbolçular olub. Halbuki, ən az günah məhz onlardadır. Onları necə öyrədiblərsə, elə də oynayırlar. Bizim uğursuzluqların fonunda dəfələrlə daha az maliyyə ayrılan Gürcüstan və Ermənistanın yığma komandalarının qazandıqları nəticələr göz deşir. Gürcüstan yığma komandası təqribən 1 həftə bundan əvvəl Millətlər Liqasının bizim də iştirak etdiyimiz divizionunun gümüş medalını qazandı və Avropa Çempionatı-2020-in final mərhələsinin bir addımlığında dayandı. Bütün günü ələ saldığımız, cəbhədə ordusunu darmadağın etdiyimiz, prezidentindən baş nazirinə, hərbçilərindən iqtisadiyyatına qədər lağ obyekti olan Ermənistanın futbol yığması Millətlər Liqasında öz qrupunda lider oldu və B divizionuna vəsiqə qazandı. Biz isə hələ də sonuncu olmadığımız üçün sevinirik. Bəxtimizdən, UEFA bizim yığma komandanın onlarla heç bir turnirdə qarşılaşmasına icazə vermir. Görəsən, heç utanırmı AFFA rəhbərliyi buna görə? Ayıb olsun, başqa nə deyə bilərik, sadəcə, ayıb olsun.

Yuxarıda da qeyd etdiyim ki, bu nəticələrdə ən az günah futbolçularımızdadır. Onlara uşaq yaşlarında necə öyrədirlər, elə də oynayırlar. Azərbaycanda bu 12 ildə AFFA rəhbərliyi normal bir akademiya qura bilməyib. Qonşularımız Gürcüstanın və Ermənistanın futbolçularını Avropanın öndə gedən çempionatlarında iştirak edən klubların heyətlərində gördüyümüz halda, bizim futbolçularımız heç qonşu Türkiyə və Rusiya çempionatlarının autsayderlərinin əvəzedici heyətlərində belə möhkəmlənə bilmirlər. Hamısının da səbəbi futbol başbilənlərimizin 12 il ərzində uşaq futbolunda inkişafa nail olmaq üçün normal bir infrastuktur qura bilməməsi, səviyyəli uşaq məşqçiləri yetişdirə bilməməlidir. Bunun səbəbini soruşanda AFFA-nın "xaç atası" sizə 150 min futbolçunun qeydiyyatdan keçdiyini deyəcək. Sual verə bilərsiz ki, bəs 150 min futbolçu qeydiyyatda olan ölkənin aşağı yaşlı yığmalarının əsasını niyə türkiyəli və rusiyalı futbolçular təşkil edir.

AFFA rəhbərliyinin uğursuz layihələri o qədərdir ki, saymaqla bitməz. 2009-cu ildə əsası qoyulan və mövcud olduğu müddətdə 3 milyondan çox vəsait ayrılan və guya 3000 azərbaycanlının tədris keçdiyi "Berlin Futbol Akademiyası". Akademiyanın fəaliyyəti necə müəmmalı idisə, sonu da eyni formada müəmmalı oldu. Mətbuat konfranslarının birində bir jurnalistin "Berlin futbol akademiyası ünvanı hardadı?" sualına heç bir AFFA məsul şəxsinin cavab verə bilməməsinin üzərindən heç 1 ay keçmədən bu "akademiya"nın fəaliyyətinin dayandırılması elan olundu...

AFFA şübhəli Berlin layihəsinə milyonlar xərcləmək əvəzinə Gəncədə futbol akademiyası yarada bilməzdimi? 10-12 ildə yüz milyonların havaya sovrulması kimə lazım idi? Axı bu vəsait AFFA-nın deyil, dövlətin, xalqındır. Razılaşmayanlar varsa, Berlin "akademiyası"ndan bir ortabab futbolçu adı çəksinlər. Son 12 ildə "Azərbaycanlı futbol oynaya bilmir" adı altında 100-dən çox nəsli-kökü bilinməyən, Azərbaycana heç bir bağlılığı olmayan əcnəbi futbolçular gətirilib, pasportumuz verilib. Çoxu da "küçədən tutma" futbolçular. Hətta, bir braziliyalı jurnalist yazırdı ki, azərbaycanlılar gəlib küçədən uşaqları tutub aparır, məşhur futbolist adı ilə ölkədə yüksək liqada oynadırlar.

Eyni vəziyyət məşqçilərə də aiddir. Özümüzün nəticə verən peşəkar məşqçilərimiz klublara və yığmalara cəlb olunmur, amma xaricdən 5-ci dərəcəli məşqçilər astronomik transfer qiymətləri ilə dəvət olunur. Ortada isə heç bir nəticə yoxdur. Sanki bu ölkədə pul yerdən yığılır. Heç kim də bu özbaşınalığa görə məsuliyyət daşımır. Sanki, belə də olmalıdır. Bunun fonunda mənfur düşmənimiz Ermənistanın 19 yaşlıları kimi futbolçularından ibarət milli komandası 2019-cu il Avropa çempionatına vəsiqə qazanır...

Bəs futbolçu yetişdirmək əvəzinə AFFA nə işlə məşquldur? Azərbaycan futbol meydançalarını süni örtüklü meydançalara çevirmək. Biri ən azı 300 min manata başa gələn bu süni örtüklü meydançalar xüsusi ilə uşaqların oynaması üçün məsləhət görülmür. Amma bu boş şeydir, əsas odur ki, futbol baş bilənlərimizin cibi dolsun. Azərbaycanlı uşaqlar zədələnsə, Azərbaycan bütün dünyada "süni örtüklü meydançalar məkanı" kimi tanınsa da olar. AFFA rəhbərliyinin bu 12 ildə gördüyü yalnız bir iş var- milyardlarla vəsaiti boşa xərcləmək, cibləri doldurmaq və Azərbaycanı bütün dünyada biabır etmək. Bu gün futbolumuz xilas etməyin yalnız bir yolu var hazırki, AFFA rəhbərliyi tam heyətlə istefaya getməli, bu sahədəki dağıntıya və rüsvayçılığa görə cavab verməli, futbolumuza isə bu işi bilən vicdanlı mütəxəssislər rəhbərlik etməlidir.

Bundan sonra gələcək rəhbərin konkret komandası olmalı, hər kəsin öz işi olmalı və bu işin peşəkarları olmalıdırlar- sponsorların futbola cəlb olunmasından tutmuş, azarkeşləri stadionlara qaytaracaq, uşaq futbolunun inkişafına görə məsul olan peşəkar kadrlar. Daha çox böyük futbola yox, uşaq futboluna diqqət ayrılmalı. Yalnız və yalnız bu halda futbolumuzda inkişaf, yığma komandalarımızı böyük turnirlərin final mərhələsində görə bilərik. Hazırki, AFFA rəhbərliyinin çalışdığı müddətdə isə biabırçılıqdan başqa heç nə olmayacaq. Zaman bunu sübut etdi.

***İlkin Abbasov***
***Xüsusi olaraq SİA üçün***

# Nur içində yat, nur üzlü şəhidim!

Şəhid, Kazımlı Mürsəl Kamil oğlu... Nur üzlü şəhidimiz Mürsəl. Ailənin tək oğul övladı idi. Cəmi 28 yaş yaşadı. Meğri rayonunun şəhid oğludur. Qubadlı uğrunda gedən döyüşlərdə Vətən uğrunda canını fəda etdi. Şəhidlər ölmürlər, onlar tanrı dağının sakinləri olurlar, gecələr ay-ulduza, gündüzlər günəşə dönüb şəfəq saçarlar yer üzünə. Şəhid atası, şəhid anası dik tutun başınızı! Oğlunuz bir sizin yox, Vətənin oğlu oldu. Sən döyüşə gedərkən bir doğmaların yola salmışdı, qayıdanda isə insan seli səni şəhid kimi qarşıladı. Oğul var evdən, oğulda var eldən gedər. Sən eldən gedən oğulsan! Əcəl əlini tez sıxdın, kəfən yerinə bayrağı seçdin. Şəkillərinə baxdım, bütün şəkillərində gülürsən, təbəssüm yağır üz-gözündən. Arzuların çox idi, çox...




Hər oğul silaha sarılıb döyüşə gedə bilməz. Sən sarıldın silaha, Vətən eşqi, azadlıq eşqi sənin qanında, canında idi. Çətindir, bilirəm. Xüsusilə valideyin üçün övlad itkisi - bir ömür boyu ürəklərində bu ağır tale yükünü daşıyacaqlar. Axrıncı videolarına baxdım, əsgər yoldaşlarınla deyib-gülüb oxuyursan. Mahnının sözlərinə bax - boran olar, qar olar. Elə boran oldu, qar oldu, ata anan, ömrü boyu bu boranda, bu qarda üşüyəcəklər. Sənsizlikdən üşüyəcəklər. Neçə-neçə Mürsəllər dünyaya gələcək adını bilmədiyim necə oğul şəhidlərimiz var ki, o adla dünyaya gələcəklər xatırlanacaqlar.

Nur üzlü şəhidimiz Mürsəl bala, sənin qanın töküldüyü yerdə yaz yağışları yağacaq, yağışlar torpağa hopacaq, o yerlərdə ağaclar pöhrələnəcək, sənin həyat eşqi, Vətən eşqi ruhun daima oralarda dolanacaq, boynu bükük bənövşələr, al əlvan lalələr açılacaq, Tanrının nurundan yer üzünə səpələnmiş güllər, çiçəklər öz rəngində öz ətrində çəmən gülləri açılacaq axı o yerlər müqəddəs olacaq, axı o yerdə şəhid qanı tökülüb.

Qubadlı ilə üzbə-üz həsrətli Vətənimiz durur, lap yaxınındaydın. Nəfəs-nəfəsdə idin Vətənlə. Bəlkədə sonuncu dəfə qanrılıb elimizə gedən yollara baxmısan, baş-başa verən Ələngəz dağlarına baxmısan. Axı o yerlər sənin dədə-baba yurdundur. Laylanı lal axan Araz çayı, şəhidliyinə dözə bilməyən dağlarımız layla çalıb sənə. Sən tək atananın oğlu yox Vətənin oğlusan.

Bir də, bir də ürəyi hər an sənin yanında olan, gələn yollarına göz tikən, arzularında, dualarında yolunu gözləyən, könül verdiyin xanım vardı. Gələcəm demişdin, mütləq gələcəm. O da sənin sevgini ürəkdə saxlamışdı, gözləyirdi səni. Sənin şəhadətə yüksəldiyin gün bax o da sanki öldü. Onun qəlbində sevgidən bir qala tikmişdin, o qalanın memarı da sən idin, bənnası da. Həmin gün sevdiyin insanın iç dünyası darmadağın oldu, viran qaldı, nakam qaldı, yetim qaldı sevgisi, sənə ürəyində bir məzar daşı qoydu, hər gün bu sevgi məzar daşına baş çəkəcək, göz yaşlarından sənə çələng hörəcək öz dərdini özü böləçək, göz yaşları mirvari dənələri kimi gözlərindən ürəyinə axacaq yaşayacaqsan xatirələrdə, ömür karvanının hər dönəmi doğmalarının yaddaşında qalacaq. Nur üzlü şəhidimiz rahat yat nur içində, yat...

***Cəmilə Babayeva***

# Xankəndi Azərbaycanın nəzarəti altına keçir

*Humanitar yüklər əvvəlcədən planlaşdırılmış qaydada Azərbaycan Müdafiə Nazirliyi Hərbi Polisinin müşayiəti altında Bərdə-Ağdam-Xankəndi marşrutu üzrə avtomobil nəqliyyatı vasitəsilə təyinat məntəqəsinə çatdırılıb*







***Şanlı Azərbaycan Ordusunun Qarabağ cəbhəsində 44 gün ərzində işğalçı Ermənistana verdiyi hərbi və siyasi dərsin ardınca, imzalanmış üçtərəfli bəyannaməyə əsasən, növbə ərazilərimizin tam olaraq nəzarətimiz altına keçməsinə gəldi. Daha dəqiq desək, hərbi əməliyyatlar dayandıqdan dərhal sonra müəyyən olunmuş qrafik əsasında işğalçı qüvvələrin yerdə qalan hissəsinin ərazilərimizdən çıxarılması prosesinə start verildi.***

Artıq Ağdam və Kəlbəcər rayonları tamamilə Azərbaycan Ordusunun nəzarəti altındadır və bu gün Laçın rayonu da bir güllə atılmadan tam nəzarətimiz altına keçmək üzrədir. Bütün bu reallıqların arxasında dayanan yeganə həqiqət, yeganə faktor birmənalıdır - Azərbaycanın düşmən üzərində tam qələbəsi və Ali Baş Komandan cənab İlham Əliyevin Dağlıq Qarabağa heç bir statusun verilməyəcəyi ilə bağlı dəfələrlə səsləndirdiyi bəyanatları.

### Qarabağ münaqişəsinin birdəfəlik həlli mexanizminin bütün rıçaqları Azərbaycanın əlindədir

Söz yox ki, növbəti proseslər diplomatiya xətti ilə davam edir və əlbəttə ki, qəbul olunmuş məlum bəyannamə əsasında. Yəni Xankəndi də daxil olmaqla, Dağlıq Qarabağın bütün (!) ərazisində Azərbaycan qanunları icra ediləcək, Azərbaycan bayrağı əsəcək, bu da birmənalıdır!

Digər bir reallıq qardaş Türkiyə dövlətinin istər siyasi, istərsə də hərbi mənada bizə dəstəyi və bu dəstəyin davamlı xarakter alması faktıdır. Əbəs deyil ki, artıq Türkiyənin müvafiq rəhbər dairələri türk hərbi kontingentinin Azərbaycana gəlməsi istiqamətində kiçik detalların dəqiqləşdirildiyini bəyan edir, qısa müddətdə burada olacaqlarını vurğulayırlar. Sözügedən reallıq da belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, Qarabağ münaqişəsinin birdəfəlik həlli mexanizminin bütün rıçaqları Azərbaycanın əlindədir.

### Sosial şəbəkələrdə özlərindən "ağıllı" tipli "siyasi moizələr" oxuyan, ümumxalq maraqları üçün heç vaxt bir araya gəlməyən həmin tiplərin bundan sonra da nəyə isə iddia etmələri xalq üçün heç bir rol oynamır

Lakin təəssüf ki, istər müharibə dövründə, istərsə də atəşkəs bəyannaməsindən sonra işlərigücləri yalnız pessimistlik yaratmaqdan, uğursuz düşüncələrlə ictimai rəyi çaşdırmaqdan ibarət olan adamlar da var və onlar hazırda aparılan hərbi-diplomatik səylərə kölgə salmağa cəhdlər göstərməkdədirlər. Halbuki, belələrinin əksəriyyəti "siyasi partiya lideri" adı altında illər boyu Qarabağ mövzusundan öz çirkin məqsədləri üçün istifadə ediblər, spekulyasiyalara yol veriblər. Əlbəttə, xalq, ictimai rəy artıq bu cür populist, "millətçilik" pərdəsi altında sözün əsl mənasında polyaçilik sərgiləyənləri hesaba almır, ciddi qəbul etmir. Artıq onların bütün kartları açılıb və hansı "məzhəbə" qulluq göstərmələri də bəllidir. Yalnız sosial şəbəkələrdə özlərindən "ağıllı" tipli siyasi moizələr oxuyan, xalq, dövlət, ümumxalq maraqları üçün heç vaxt bir araya gəlməyən həmin tiplərin bundan sonra da nəyə isə iddia etmələri xalq üçün rol oynamır. Amma bütün bunlara rəğmən, bir daha həmin satqın və xəyanətkarların Qarabağ ətrafındakı uğurlu diplomatiya siyasətimizə kölgə salmağa yönəlmiş çirkin niyyətlərini ifşa etmək üzərimizə düşən məsuliyyətdir...

### Rəsmi məlumatda qeyd edilir ki, gələn bu heyət və yük üçtərəfli bəyanatda qeyd olunan Rusiya Federasiyasının 1960 sayda hərbi qulluqçusu, müvafiq sayda hərbi texnika, avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingentin bir hissəsidir

Beləliklə, bugünlərdə Müdafiə Nazirliyinin rəsmi informasiyasında bildirilir ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşdirilən Rusiya sülhməramlı kontingentinin təminatı ilə bağlı Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında imzalanmış protokola əsasən müvafiq fəaliyyətlər həyata keçirilir.

Noyabrın 28-də Rusiyadan ölkəmizə dəmir yolu vasitəsilə daxil olan hərbi qulluqçular, avtomobil və xüsusi texnika, o cümlədən digər maddi-texniki təminat vasitələri müvafiq qaydada sərhəd və gömrük nəzarətindən keçib.

Sülhməramlılar üçün nəzərdə tutulan yük noyabrın 29-da Yalama-Bakı-Yevlax-Bərdə dəmiryolu marşrutu üzrə Bərdə şəhərinə çatdırılıb.

Vaqonlardan boşaldılan yüklər əvvəlcədən planlaşdırılmış qaydada Azərbaycan Müdafiə Nazirliyi Hərbi Polisinin müşayiəti altında Bərdə-Ağdam-Xankəndi marşrutu üzrə avtomobil nəqliyyatı vasitəsilə təyinat məntəqəsinə çatdırılıb.

Rəsmi məlumatda qeyd edilir ki, gələn bu heyət və yük üçtərəfli bəyanatda qeyd olunan Rusiya Federasiyasının 1960 sayda hərbi qulluqçusu, müvafiq sayda hərbi texnika, avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingentin bir hissəsidir.

### Ermənistandan gələn hər hansı yük və s. humanitar yardımlara isə artıq nəzarətimizə keçən Laçın dəhlizində yoxlanılacaq

Söz yox ki, müharibədən sonra humanitar məsələlərin reallaşdırılması vacib məqamdır və burada əsasən, yardıma ehtiyacı olan mülki əhalinin təminatları faktoru dayanır. Ancaq daha bir reallıq budur ki, artıq Xankəndidə aparılan yardımların bir hissəsi də, məhz Azərbaycanın ərazisindən keçir və həmin faktın özü də sübut edir ki, artıq Xankəndinə nəzarət prosesi Azərbaycanın nəzarəti altına keçmək üzrədir. Təbii ki, daha sonrakı müddətdə orada əvvəllər yaşamış ermənilərin və doğma yurd-yuvalarına geri dönəcək azərbaycanlıların yerləşdirilməsi, qeydiyyat və s. məsələsi də gündəmə gələcək və bu prosesdə də Azərbaycan dövləti öz hüququnu, diktəsini davam etdirəcək. Ermənistandan gələn hər hansı yük və s. humanitar yardımlara isə artıq nəzarətimizə keçən Laçın dəhlizində yoxlanılacaq. Çünki o da bəllidir ki, Rusiya sülhməramlıları ilə yanaşı, həmin dəhlizin əsas məntəqəsində Azərbaycan Silahlı Qüvvələri yerləşəcək. Daha bir mühüm amil isə Türkiyə hərbi kontingentinin Azərbaycan tərəfinin təyin edəcəyi istənilən yerdə xidmət göstərəcəyi ilə bağlı verilən qərardır. Maraqlıdır ki, bütün bunları bilən bəzi "ağıllı" siyasətbazlar, əslində təxribatçılıqla məşğul olurlar və söz yox ki, irəli sürdükləri hər hansı bir fikirləri nə xalq üçün, nə də cəmiyyət üçün maraq kəsb etmir.

***Rövşən RƏSULOV***

# Yumruq kimi birliyi bizə bəxş edən SƏRKƏRDƏ!

***Aqillərin dediyi belə bir fikir var: "Üzük qaşı ilə tanınar". Bəli, böyük hikmət, məna var bu sözdə. Həqiqətən də, xalq, millət, dövlət özünün layiq olduğu rəhbəri ilə, lideri ilə tanınır. Belə bir xoşbəxtliyi Ulu Tanrı Azərbaycan xalqına da bəxş edib. Dünya miqyasında öz xüsusi çəkisi, yeri olan Azərbaycan Prezidenti İlham Əliyev xalqını dünyaya tanıdan, özü də yeni bir tarix yazan LİDERLƏRDƏN, SƏRKƏRDƏLƏRDƏNDİR!***

Son 30 il ərzində erməni faşistlərinin doğma torpaqlarımızda həyata keçirdiyi vəhşiliklər isə heç bir çərçivəyə, əndazəyə sığmır. Onlara xalqımız tərəfindən tutarlı, həlledici zərbə vurulmasının vaxtı gəlirdi...

## Bu vaxt isə özünü çox gözlətmədi...

Bəli, 27 sentyabr 2020-ci il tarixindən bu gün kimi Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını alaraq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlayaraq İkinci Vətən Müharibəsinin 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli, Şuşa, qəsəbələr, kəndlər, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanatı isə Azərbaycan xalqının qələbəsi idi. Arii Baş Komandanımızın dediyi kimi: "Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır". 10 noyabr, 2020-ci il tarixli bəyanat - Azərbaycanın Qarabağa qovuşduğu, tarixi zəfərə imza atdığı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldığı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdiyi tarixi gündür.

## "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi"

Bəli, həqiqətən də Müzəffər Ordumuzun Sərkərdəsi İlham Əliyevin dediyi kimi: "30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar",-deyən Müzəffər Ordumuzun Sərkərdəsinin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən başladığı zəfər yürüşü 44 gün ərzində 30 ilin həsrətinə son qoydu, avantürist Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı".

Bu böyük qələbəni YUMRUQ KİMİ BİRLİYİ BİZƏ BƏXŞ EDƏN SƏRKƏRDƏMİZİN rəhbərliyi, Güclü Ordumuz və rəşadətli əsgər və zabitlərimizin igidliyi ilə əldə edildi. Bu tarixi zəfər qələbəsi ilə Azərbaycan Prezidenti İlham Əliyev həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

"Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər birimizdə böyük sevinc və qürur hissləri yaratdı. Bu böyük qələbə ilə Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir" deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı.




## Bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir

Bəli, bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Azərbaycan Prezidentinin dediyi kimi: "İlk mərhələdə 3 ölkənin başçısı bu videokonfrans vasitəsilə bəyanatı imzalamalı idilər. Ancaq son anda Ermənistan baş naziri bundan imtina edib. Bu, müəyyən dərəcədə başadüşüləndir. Çünki faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Ona görə bu bəyanatı videokonfrans formatında Rusiya Prezidenti və mən imzalamışıq və bu bəyanat rus dilində tərtib edilibdir. Mənim burada imzam var, bu sənəd bu imzalamadan sonra Rusiya səfirinə təqdim edilib və Rusiya və Ermənistan dövlət, hökumət başçıları bu sənədi imzalayacaqlar". Belə də olmalı idi!. Çünki küçə adamının Azərbaycanın böyük Sərkərdəsi qarşısına çıxmağa belə cürəti çatmadığını anladığı üçün layiq olduğu yerdə, hansısa bir anbarda bu bəyanatı imzalamalı idi. Sözsüz ki, Azərbaycanın dəmir yumruğu gücü ilə!. Dövlət başçımızın dediyi kimi: "Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - dəmir yumruğun hesabına imzalayır!".

## Budur, Lider sözü! Budur, xalqın Sərkərdəsi!

Bir sözlə, tarixi sənəd imzalandı: Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı! Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Beləliklə, "Qarabağ Azərbaycandır! və nida işarəsi",-söyləyən Prezidentimiz, xalqımızın Sərkərdəsi hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdi. Noyabrın 10-u xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı! 30 ildən sonra Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kəsə verən deyilik. Qarabağ Azərbaycandır! Bu bizim yumruğumuzun, birliyimizin qələbəsidir!

## Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

Mümkünsüzdür! Azərbaycan Prezidenti İlham Əliyev cənablarının qeyd etdiyi kimi, bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz! Çünki 2020-ci il, noyabrın 10-u Müzəffər Azərbaycan Ordusu ZƏFƏR çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərlərində, eyni zamanda, Xocalının, Xocavəndin, Tərtərin, Ağdərənin kənd və qəsəbələrində, Xankəndidə, Ağdamda, Kəlbəcərdə dalğalanan üçrəngli zəfər bayrağımız, İnşallah, Laçında, ümumiyyətlə, işğaldan azad ediləcək bütün ərazilərimizdə də dalğalanacaq!. Və bu tarixi 10 noyabr bütün Qarabağımızı, qürurumuzu, özünəgüvənimizliyi, inamımızı qaytaran, ümidsizliyi, sınıqlığı qovmuş, birliyimizi, yekdilliyimizi bərqərar etmiş Prezident, Ali Baş Komandanımız, Sərkərdəmiz İlham Əliyevdən Azərbaycana əbədi yadigar qalacaq - ZƏFƏR BAYRAMIMIZ! Çünki Qarabağ Azərbaycandır!

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

## "Vətəndaşlarımız Xankəndinə, Xocalıya, Xocavəndə və Ağdərəyə qayıdacaq"



"Azərbaycanın ərazi bütövlüyü təmin edildikdən sonra, Azərbaycan öz suverenliyini Xankəndində, Xocalıda, Xocavəndə, Ağdərədə və digər ərazilərdə bərpa etmək üçün Rusiya sülməramlı ilə danışıqlar aparacaq. Çünki Xocalı, Xocavənd azərbaycanlıların ən sıx məskunlaşdığı rayondur və bu ərazilərə qaçqın və köçkün həyatı yaşayan azərbaycanlılar qayıtmalıdırlar". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Qabil Hüseynli bildirib.

Onun sözlərinə görə, Dağlıq Qarabağın statusu deyilən məsələsinin gündəmdən çıxarıldığına görə, həmin ərazilərdə Azərbaycanın suverenliyinin bərpa edilməsi və ərazi inzibati vahidi kimi tanınması istiqamətində işlər aparılacaq: "Doğrudur bu hələki rusların təsiri altında olan bölgələrdir və ruslarla bu məsələlərdə razılaşmaq lazımdır, O səbəbdə də ilk vaxtlar hər şey siyasi danışıqlar yolu ilə həll edilməyə çalışılacaq. Türkiyə sülhməramlıları bölgəyə gəldikdən sonra bu məsələnin daha şiddətlə, ardıcıl sürətlə qaldırılması və həyata keçirilməsi gözlənilir".

***Gülyana***

# TƏBİB-dən həyəcan siqnalı:

## COVID-19-a yoluxanların sayı artır

***Məlum olduğu kimi, bu gün bütüq bəşəriyyəti lərzəyə gətirən virusa qarşı mübarizə aparılır. İstəsək də, istəməsək də insanlar COVID-19 xəstəliyinə yoluxur və ölür. Bildiyiniz kimi, pandemiya Çində başladı, ancaq onlar tez bir zamanda virusun öhdəsindən gəldilər. Çünki onlarda maska taxmaq hər yerdə məcburi idi. Bu, vəziyyətdən çıxmağa kömək etdi. Əlbəttə total qapadılma da öz rolunu oynadı, harasa getmək ümumiyyətlə qadağan edildi. Bildiyiniz kimi, Cənubi Koreya və Çexiya kimi ölkələrdə açıq havada maska taxmaq təcrübəsi də müsbət nəticə verdi.***



Qed edək koronavirus pandemiyası başladığı ilk gündən dövlət başçımız dünyanı ağuşuna alan koronavirus pandeminasının ilk günlərindən Prezident İlham Əliyevin uzaqgörənliyinin nəticəsi olaraq vaxtında qəbul edilən düşünülmüş düzgün qərarlar itkiləri minimuma endirməyə imkan yaradıb və məhz zamanında görülən tədbirlər nəticəsində Azərbaycanın adı nümunəvi ölkələr sırasında çəkilir.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında bildirib ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Bir sözlə, dövlət başçısının koronavirusla bağlı ardıcıl addımların atılmasında məqsəd Azərbaycan xalqının sağlamlığı olduğunu bildirib: "Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır. Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq".

Məhz uğurldu nəticələr əldə etmək üçün ən əsas məsələ, vətəndaşlarımız karantin rejiminin qaydalarına məsuliyyətlə əmlə etməlidirlər. Bu gözə görünməz virusdan xilas olmaq və ya daha az yoluxmanın, eləcə də insan təlafatının olmaması üçün dövlət başçısı tərəfindən cox ciddi addımlar atılıb və bu gün də atılır. Buna görə də ölkədə hansı vəziyyətin olmasından asılı olmayaraq vətəndaşlar karantin qaydalarına əməl etməlidir. Təəssüf doğuran odur ki, hələ də karantin rejiminin qaydalarına məsuliyyətlə yanaşmayanlar var. Məhz bunun nəticəsidir ki, son günlər bir sıra ölkələrdə olduğu kimi, Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarında kəskin artım müşahidə olunmaqdadır. Bu səbəbdən də Nazirlər Kabineti yanında Operativ Qərargahının qərarına əsasən ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılır.

### Açıq havada qoruyucu maska taxmayanlar da cərimələnəcək

Nazirlər Kabineti yanında Operativ Qərargahın noyabrın 19-da imzaladığı qərara əsasən, bu gündən Azərbaycanda açıq və qapalı məkanlarda tibbi maskalardan istifadə məcburi olub. İnzibati Xətalar Məcəlləsinin 211.2-ci maddəsinə əsasən, epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 100 manat məbləğində, vəzifəli şəxslər 200 manat məbləğində, hüquqi şəxslər 400 manat məbləğində cərimə edilir. Həmin xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən 1 il ərzində təkrar törədilməsinə görə fiziki şəxslər 200 manat məbləğində, vəzifəli şəxslər 400 manat məbləğində, hüquqi şəxslər 800 manat məbləğində cərimə edilir.

### Açıq havada maskasını çıxararaq siqaret çəkən şəxslər də cərimə ediləcək

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov bildirib ki, açıq havada maska taxmaq mütləq vacibdir: "Bu, Nazirlər Kabinetinin qərarında qeyd olunub. Günü-gündən xəstəxanalarda koronavirus xəstələrinin sayı artır. Hər kəs zəhmət çəkib, maskadan istifadə etsin. Artıq açıq havada maskasını çıxararaq siqaret çəkən şəxslər 100 manat məbləğində cərimələnir".

Şübhəsiz bu gün yoluxma sayındakı artımda, virusun ikinci dalğası ilə üzləşməyimizdə fəslin, iqlim amilinin təsiri var. Ancaq unutmaq olmaz ki, əhalinin müvafiq gigiyena qaydalarına əməl etməsi də burada mühüm rol oynayır. İndiki şərait ikiqat məsuliyyətli olmağımızı tələb edir. Hər birimiz dövlətimiz, iqtisadiyyatımız, səhiyyəmiz, özümüzün və yaxınlarımızın sağlamlığı üçün ciddi təhdid olan bu təhlükənin aradan qaldırılması üçün əlimizdən gələni etməliyik.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti yanında tibbi-elmi komitənin sədri, professor Akif Qurbanov bildirib ki, hamımız qorunma tədbirlərinə, qaydalara ciddi əməl etsək, o zaman yoluxma saylarını azalda bilərik: "Vətəndaşların bir qisminin məsuliyyət nümayiş etdirməsi ilə buna nail ola bilmərik. Qorunma tədbirlərinə, hamının bildiyi qaydalara düzgün riayət edilməlidir. Maska tənəffüs yollarını örtmürsə, bu, onu nəyinsə xatirinə gəzdirməkdən başqa bir şey deyil. Qapalı məkanlarda, sıx təmasların olduğu yerlərdə maska istifadəsinə xüsusi diqqət yetirilməlidir. Bilməliyik ki, maskanı hələ uzun müddət istifadə etməliyik. Çünki pandemiyaya hələ qalib gəlməmişik. Digər, tərəfdən məsafə saxlanılması vacibdir. Maska taxılması, məsafə saxlanılması, əl gigiyenasına əməl edilməsi nəinki koronavirusdan, mövsüm üçün xarakterik olan digər respirator infeksiyalardan da qorunmağımıza kömək edir. Bu, çox uzun müddət vaxt aparar və koronavirus səbəbindən vəfat edənlərin sayı çox ola bilər".

Professor bildirib ki, pandemiyanın nə vaxt bitəcəyini elmi cəhətdən proqnozlaşdırmaq olar: "İnsanların 70 faizinin, yəni üçdə ikisinin orqanizmində koronavirusa qarşı immunitet yaranacağı zaman virus aramızdan gedəcək. Hazırda bütün dünyada insanların az bir qismi yoluxub. Əhalinin bir qrupu xəstəliyi keçirib sağalaraq immunitet qazanacaq. 70 faizin digər hissəsi isə vaksinlə tənzimlənəcək. Gələn ildən vaksinlərin gələcəyi gözlənilir".

### Koronavirusa yoluxma sayı niyə artır? Səbəb

Sözügedən məsələyə münasibət bildirən Səhiyyə Nazirliyinin İctimai səhiyyə və sanitariya-epidemioloji nəzarəti şöbəsinin müdiri Nəzifə Mürsəlova bildirib ki, son bir neçə həftə ərzində ölkə üzrə yeni növ koronavirusa yoluxanların statistikasında mənfi dinamika müşahidə olunur: "Bu, o deməkdir ki, infeksiyaya yoluxan xəstələrin sayında nəzərə çarpan artım var. Bu artımın bir sıra müxtəlif səbəblərini qeyd etmək lazımdır. Bu səbəblər arasında gün ərzində havanın dəyişkən mülayim keçməsini, payızın gəlməsi ilə əlaqədar orqanizmin immun statusunun zəifləməsini qeyd etmək olar. Bununla yanaşı, məlum olduğu kimi son həftələr ərzində ölkədə müharibə vəziyyəti elan olunub. Bu səbəbdən də əhali tərəfindən xəstəliyə qarşı diqqət azalıb və bu məsələ bir qədər ikinci plana keçib".

N.Mürsəlova qeyd edib ki, hazırda ölkədə davam edən xüsusi karantin rejiminin qaydalarına görə kütləvi tədbirlərin keçirilməsinə qarşı irəli sürülən tələblərin hələ də qüvvədə olmasına baxmayaraq, insanların dəfn mərasimlərində və səfərbərlik məntəqələrinin önündə sıx şəkildə toplanması xəstəliyə yoluxanların sayındakı artıma səbəb olub.

Həkimin sözlərinə görə, hormonal preparatların ev şəraitində istifadəsi arzuolunmazdır, çünki onlar xəstəliyin əlamətlərini gizlədərək yaxşılaşma təəssüratı yaradır və bu zaman inkişaf edən ağırlaşma gec nəzərə çarpır. Bu da artıq xəstəxanaya düşən insanın müalicəsini çətin və ya mümkünsüz edir: "Əhaliyə bir daha müraciət etmək istərdim ki, ilk növbədə hətta açıq havada belə sıxlıq olduqda tibbi maskalardan və dezinfeksiyaedici vasitələrdən istifadə, fiziki məsafənin saxlanmasına riayət etsinlər. Eyni zamanda kütləvi tədbirlər, iştirak edilməsi vacib olmayan dəfn, yas və ya digər toplantı yerlərinə getməkdən çəkinmək yolu ilə xəstəliyə yoluxmadan özlərini və yaxınlarını qorusunlar. Xəstəlik əlamətləri qeyd edildikdə özlərini təcrid etməklə yanaşı dərhal aidiyyəti üzrə həkimə müraciət etsinlər, laboratoriya müayinəsindən keçib, erkən və düzgün müalicəyə cəlb olunsunlar. Mən əminliklə bildirirəm ki, bütün bu deyilənlərə əməl etməklə biz özümüzü və ətrafımızdakı insanları xəstəlikdən müdafiə edə bilərik".

***R.HÜSEYNOVA***

## Dağıdılmış qəbiristanlıqlar, tövləyə çevrilmiş məscidlər...

*Fransalı fotoqraf Rza Diqqətinin gözü ilə*

Mədəni, mənəvi, dini irsə qarşı təcavüz qəbuledilməzdir. Son bir neçə gün ərzində mən Qarabağda dağıdılmış qəbiristanlıqlar, yandırılmış evlər və tövləyə çevrilmiş məscidlər gördüm. SİA-nın məlumatına görə, bunu İran əsilli fransalı fotoqraf Rza Diqqəti öz "Facebook" səhifəsində yazıb. Ağdam rayonundakı dağıntıların şəkillərini paylaşan fotoqraf 18-ci əsrə aid məscidin inək saxlama üçün istifadə olunduğunu bildirib: "Bölgəni tərk etməzdən qabaq işğalçı apara bildiyini götürüb və məscidi yandırıb. Bərpa və rekonstruksiya uzun bir proses olacaq".







## Tahir Rzayev:

## Fransanın vasitəçi olmağa haqqı yoxdur

"Müharibə apardığımız 44 gün müddətində və bu günlərdə Azərbaycan xalqı Fransanın ermənipərəst mövqeyini gördü, duydu və bizə qarşı düşmənçiliyini hiss etdi. Bu münasibət xalqımıza çoxdan məlum olsa da yenə də Fransanın ATƏT - in həmsədr ölkələrindən biri kimi beynəlxalq normalara, qəbul etdiyi öhdəliklərə, imzaldığı sənədlərə az da olsa hörmət edəcəyi ümidində idik. Ancaq təsəvvürlərimiz özünü yenə də doğrultmadı". Bu fikirləri Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib.



Tahir Rzayev bildirib ki, Fransa dövləti nəinki BMT Təhlükəsizlik Şurasının qətnamələrini, ATƏT-in prinsiplərini, bir çox qərar və əsasnamələrin tələblərini nəzərə aldı, onlara hörmət nümayiş etdirdi, əksinə bu ölkənin rəhbəri Emmanuel Makron başda olmaqla, Fransa senatı, Paris meriyası, bəzi siyasətçilər özlərinin anti - Azərbaycan, Türkiyə bəyanatlarını ortaya qoydular, erməni işğalçılarını müdafiə etdilər, onların faşist əməllərinə, ideologiyasına bəraət qazandırdılar.

"Halbu ki, Fransa ATƏT- in həmsədr ölkəsi olaraq münaqişənin həllində tərəfsiz, qərəzsiz mövqe tutmağa borclu idi. Bunu ondan imzaladığı sənədlər, beynəlxalq hüquq normaları, haqq - ədalət tələb edirdi. Ancaq Fransa dövlətinin rəhbəri Makron, eləcə də Fransa senatı bütün tələbləri ayaq altına atdı, hətta senat Qondarma Dağlıq Qarabağ Respublikasnın tanınması haqqında biabırçı qətnamə də qəbul etdi. Belə olan halda Fransanın vasitəçiliyinə heç bir ümid etmək və ona inam göstərmək olmaz. Öz qərəzli qatı ermənipərəst mövqeyi, qəbul olunmuş beynəlxalq sənədlərə laqeyd münasibəti, hörmətsizlik göstərməsi ilə Fransa dövləti özünün imicinə böyük zərbə vurmaqla bərabər, həm də dünyada müstəmləkəçi, terroru, təcavüzü dəstəkləyən, faşistlərə, qaniçənlərə kömək olan bir ölkə olduğunu bir daha sübut etdi. Buna görə də Fransa vasitəçi ola bilməz. Onun bu missiyanı yerinə yetirməyə mənəvi və hüquqi haqqı yoxdur",- deyə komitə sədri vurğulayıb.

# İti qova-qova siçan deşiyi axtaran dabanyalayan "yan"ların...

30 il idi ki, Qarabağ dərdimizdən yazırdıq. Fikirləşirdim ki, nə qədər də Qarabağımızın həsrətinə dözmək olar? Ancaq bütün dünya dövlət siyasətçilərinin həsəd apardığı dövlətimizin Liderinin son 17 il prezidentlik fəaliyyəti bir daha göstərdi ki, Azərbaycan xalqının güvəndiyi XALQ-İqtidar birliyinin və dəmirdən də polad gücə malik olan Güclü Müzəffər Ordusunun əsgər və zabitlərinin Sərkərdəsi İlham Əliyev bu məsələnin sülh yolu həll olunmasına çalışıb, çalışır da!.




Ancaq kor atının nalbəndi olan küçələrdə qışqıra-qışqıra bədbəxt erməni xalqını boş-boş vədləri ələ alaraq hakimiyyətə yiyələndikdən sonra qara günlərini daha da qaranlıq edən sərxoş, təlxək Nikol Paşinyan kimilərə etibar edəndə sonu da belə olmalı idi. Bu təlxək Nikol oturub-oturub fikirləşdi ki, yenə də sərsəm bəyanatlarla, etdiyi korkoranə təxribatları ilə bəlkə əməllərini ört-basdır etdi. Ancaq hər dəfə atdığı sərsəm addımlarının və təxribatlarının qarşısına Güclü Azərbaycan Ordusu və özləri dediyi kimi "Azərbaycanın əsgərləri adamıın üstünə canavar kimi hücüm edir"i görəndə Paşinyan kimi təlxək və alçağın feylinə inandıqlarına peşiman oldular. Ancaq gec idi. Artıq Ordumuz erməninin qorxaq, şərəvfsiz "ordusunu" iti qovan kimi qovmaqla yanaşı, leşləri, başsız qalmış papaqlar, papaqsız qalmış düşmən başları ortada qaldı və hələ də qalmaqdadır. Çünki tarixən erməni yüz illərdir ki, quyruqlarını qısaraq hürən qorxaq it kimi onun-bunun qoltuğuna sığınaraq yerlərini isitdikdən sonra silahsız, əliyalın və dinc insanlara qarşı "qəhrəmanlıqlar" göstərmək istəyiblər. Qarşılarında güclü birisi çıxdıqda isə quyruqlarını qısaraq qaçıblar. Bu xalq tək Azərbaycan xalqına qarşı deyil, bütün xalqlara qarşı nankor, xəyanətkar olublar. Hətta zaman-zaman iplərini əllərində saxlayan rus xalqına və dövlətinə qarşı da dikləniblər və hər dəfə də ağır şəkildə cəzalandırılıblar. Çünk Allah-Təala tərəfindən lənətlənmişlərdir və lənətləndikləri üçün də xain və quduz olublar. Sentyabrın 27-də quduzlaşmış həmin bu işğalçı Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artileriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutsalar da, Milli Ordumuzun qətiyyəti sayəsində yerində otuzdurulub. Çünki Azərbaycan haqq yolundadır. Ermənistan işğalçıdır, Azərbaycan tarixi ədalətin bərpası uğrunda mübarizə aparır. Bütün dünya bilir ki, Qarabağ Azərbaycandır! Bu fakt həqiqətdir və xalq bu həqiqət uğrunda mübarizə aparır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin də müraciətində qeyd etdiyi kimi: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, **"Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Və NİDA!".**

Bəli, Azərbaycan Ordusu Qələbə çaldı! Azərbaycan Ordusu qarşısında tab gətirə bilməyən düşmən isə, atəşkəsin tezliklə bərpası üçün it kimi onun-bunun dabanının yalaya-yalaya hərbi əməliyyatların dayandırılması, atəşkəsin bərpa olunması üçün bir çox ölkə rəhbərlərinə yalvarmağa başladı. Nəhayət, oktyabrın 10-da Moskvada Rusiya, Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin 11 saatdan çox davam edən müzakirəsində humanitar məqsədli atəşkəsə razılıq verildi. Yenə də Azərbaycan dövləti humanistlik göstərdi. Ancaq bir saat keçməmiş Ermənistan tərəfindən Gəncə şəhərinə ballistik raket zərbəsi endirildi, mülki əhali terror aktına məruz qoyuldu. Ondan bir neçə gün keçdi və yenidən Gəncədə yaşayış məntəqələri raket atəşinə tutuldu, onun ardınca Bərdədə, Tərtərdə, Mingəçevirdə... təxribatlar nəticəsində körpələr, mülki insanlar, məntəqələr...

Yenə də cavblarını aldılar. Yenə də ordumuzun sürətli əks-hücumları qarşısında tab gətirməyərək geri çəkilən erməni hərbçiləri hərbi texnika, silah-sursatları ilə yanaşı, nəinki döyüş papaqlarını, hətta şalvarlarını da da atıb qaçdılar. Həm də elə qaçdılar ki, arxalarında nələrin qaldığının da fərqində olmadılar. Hərbi qənimət kimi texnikaların içindən çıxan başsız erməni papaqları, şalvarları bir daha sübut etdi ki, bu xalq həqiqətən də başlarına papaq taxmağa, şalvar geyməyə layiq deyillər. Onların layiq olduğu bir şey var: başqa xalqların əsarətində boynu zəncirli və qulağı sırğalı qul kimi və gündəlik ruziləri üçün yaşamaq. Çünki sərbəst qalan kimi quduz köpək kimi hər tərəfə hürüyürlər. Buna görə də, onların özlərinə yaraşan şəkildə cəzalandırılmalıdır ki, uzun əsrlər boyu başlarını qaldırıb dik gəzə bilməsinlər. Erməni xalqı bundan sonra dünyada ən ləyaqətsiz xalq kimi tarixə düşməlidir.

## "Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız"

Bəli, Ali Baş Komandanımız dediyi kimi: "Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!".

Bəli, lap yerində əcəb edib!. Quduzlaşa-quduzlaşa olmayn "papaqlarını", şalvarlarını, hətta arvad-uşaqlarını belə qoyub qaçan "yan"ların papaqları həmişə belə başsız, şalvarsız qalsın. Sonda isə dahilərin dediyini demək istərdim. Onlar da bu papaqsız, hətta arvad-uşaqlarının qoyan bu "yan"ları vücudsuz, şərəfsiz adlandırıblar.

**K.Marks:** "Öz arvadlarını yaşamaq və qazanc xatirinə başqa xalqların kişilərinə satan ilk millət erməni milləti olmuşdur".

**Gürcü yazıçısı Serqi Sacaya:** "Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır".

**Amerika tarixçiləri CASTİN VƏ KEROLİN MAKKARTNİLƏR:** "Ermənistanın müasir ərazisi ermənilərə deyil, azərbaycanlılara mənsubdur. Məhz buna görə Ermənistan ərazisində coğrafi adların böyük hissəsi azərbaycanlılara aiddir".

**Erməni tarixinin atası sayılan MOVSES XORENASİ hələ 5-ci əsrdə öz qəbilədaşları haqqında deyirdi:** "Ermənilər həqiqəti inkar etməyi xoşlayırlar. Onlar böyük-böyük danışmağı sevən, ikiüzlü millətdir".

**PETRONİY QAY AMATUNİ - erməni sovet yazıçısı:** "Ermənilər də insandırlar. Amma evdə dördayaqlı gəzirlər".

Bəli, dördayaqlı heyvanlardır, bu "yanlar". Onları sadəcə bizimkilərin qarşısından imkan daxilində daha uzaqlara qaçmaq və imkan daxilində sağ qalmaq maraqlandırır. Çünki dünyada ən ləyaqətsiz xalq kimi tarixə düşən xalqdır. Onlar çox yaxşı bilirlər ki, ordumuza qarşı hər hansı hərəkətləri, onların papaqsız, şalvarsız qalmaları ilə nəticələnir.

Azərbaycan Prezidentimizin xalqa müraciətində dediyi dahi fikiri dünya tarixində əbədi qalacaq: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur!".

Bəli, belə bir ibrətamiz söz də var: "Tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa!". Artıq biz qalibik! Qələbə də qazanmışıq, özü də təlxək və sərxoş, maymaq Paşinyan və qorxaq "orduları"nı iti qova-qova özgə torpağına göz dikənlərin gözünü çıxartmaq lazımdır! Çünki Qarabağ Azərbaycandır!

***RƏFİQƏ***

# "Fransa Senatının bədnam qətnaməsi erməni mənafeyinə xidmət edir"



"Fransa Senatının qəbul etdiyi qətnamə bu ölkənin parlamentarilərinin cılız erməni mənafeyinə xidmət etdiklərini göstərdi. Bunun da səbəbi, görünür, Azərbaycanın öz tarixi torpaqlarını düşmən tapdağından azad edərək ərazi bütövlüyünü bərpa etməsi Fransa kimi ölkənin rəhbərliyini ciddi narahat edir. Belə olmasaydı, nə Paris meriyası, nə də Fransa Senatı həll olunmuş münaqişəni separatçılara dəstək məqsədilə yenidən alovlandırmağa hesablanmış addımlar atmazdı". Bu fikri "SƏS" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Məşhur Məmmədov bildirərək deyib.

Deputat bildirib ki, bu ölkə indi də noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın pozulması, ermənilərin yenidən qarşıdurmalara, müharibəyə getmələri üçün əlindən gələni edir: "Ancaq bir həqiqəti anlamır ki, Fransanın son iki ayda etdiyi bütün cəhdlər axırda ona gətirib çıxaracaq ki, Qarabağda qalan beş-on min tör-töküntü millətçi erməni də bezib bu torpaqlardan rədd olub gedəcək. Xüssilə də, Fransanın bu gün Makronun rəhbərliyi ilə sərgilədiyi ermənipərəst mövqeyi, Azərbaycanın haqq, ədalət işinə qarşı apardığı siyasət birbaşa sülhə təhlükədir. Belə olan halda, Fransa Dağlıq Qarabağ münaqişəsilə bağlı bitərəf mövqe tutduğunu nə qədər iddia etsə də, bu ölkənin əslində ermənipərəst siyasət yeritməsi istər-istəməz özünü büruzə verir".

"Ermənistan-Azərbaycan münaqişəsinin 30 ildən çox davam etməsinin əsas səbəblərindən biri də erməni terroruna, barbarlığına, törətdikləri soyqırımı aktlarına və işğalçı siyasətinə beynəlxalq birliyin laqeyd münasibəti, sanksiyalar tətbiq etməməsi olub",-deyən millət vəkili onu da deyib ki, hətta münaqişənin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun həmsədrlərinin də 30 il ərzində Ermənistan ordusunun törətdiyi vəhşiliyə, dinc əhalini qətlə yetirməsinə, yaşayış məntəqələrini yararsız hala salmasına ciddi münasibət bildirməməsi təcavüzkarları daha da həyasızlaşdırdı: "Sentyabrın 27-də ölkəmizə qarşı müharibəyə başlayan Ermənistan dinc əhalini ağır artilleriyadan, ballistik raketlərdən və qadağan olunmuş silahlardan atəşə tutanda, yüzlərlə dinc əhalini qətlə yetirəndə, yaralayanda, evindən-eşiyindən edəndə, həmçinin yüzlərəl mülki obyekti, çoxmənzilli yaşayış binasını yararsız hala salanda da beynəlxalq təşkilatlar, xüsusilə də ATƏT-in Minsk qrupu "dur!" demədi. Ancaq Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Güclü Ordumuz, rəşadətli əsgər və zabitlərimizin gücü, igidliyi ilə təcavüzkara layiq olduğu yeri göstərdi. Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyən Ermənistan silahlı qüvvələri də diz çökdü və məğlub olduqlarını rəsmən etiraf etdi".

M.Məmmədov qeyd edib ki, görünür Ermənistanın məğlubiyyətinin acısı ermənilərdən daha çox Fransa senatorlarını "kədərləndirdiyi" üçün noyabrın 18-də erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən qondarma "Dağlıq Qarabağ respublikası"nın tanınmasının zəruriliyinə dair" təqdim olunan qətnamənin tələmtəlsik noyabrın 25-də müzakirə edilərək qəbul olunmasına çalışıblar: "Bu qətnamə, ilk öncə bu ölkənin parlamentarilərinin cılız erməni mənafeyinə xidmət etdiyini və alətə çevrildiyini bir daha təsdiqlədi. Bu da faktdır ki, Fransa ATƏT-in Minsk Qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik missiyasını üzərinə götürsə də, 30 ildir ki, bu istiqamətdə heç bir müsbət addım atılmayıb. Hətta Fransa Senatı ATƏT-in Minsk qrupu həmsədr dövlətlərindən birinin - Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin yaxın günlərdə, hətta Ermənistanın belə qondarma "Dağlıq Qarabağ respublikası"nın müstəqilliyini tanımadığını belə xatırlatmasını da "unudub". Putin açıq şəkildə bəyan etdi ki, beynəlxalq hüquqa əsasən, Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir". Sözsüz ki, təcavüzkar, faşist xislətli Ermənistanın baş naziri Nikol Paşinyan- Fransanın Prezidenti Emmanuel Makronun mövqeyləri üst-üstə düşdüyü üçün bu xəbərdarlığı xatırlaya və eşidə bilmir. Ancaq Makron anlamır ki, Fransa Senatının həm ölkəsinin maraqlarına, həm də beynəlxalq hüquq normalarına zidd olan qətnaməni qəbul etməklə beynəlxalq hüquq normalarını, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin kobudcasına pozulması ilə yanaşı, istər Minsk qrupunun həmsədr ölkəsi, istərsə də BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi məramı və obyektiv fəaliyyəti ilə ziddiyyət təşkil edir".

"Fransa artrıq özünün əsl ermənipərəst simasını gizlədə bilmir", - deyən M.Məmmədov bildirib ki, Fransanın Prezidenti Emmanuel Makronun sentyabrın 30-da Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı baş verən son hadisələrə dair verdiyi bəyanat münaqişənin həll edilməsi üçün yaradılan Minsk Qrupu həmsədri kimi, həmçinin ölkənin vasitəçilik missiyası ilə uyğun gəlmir, birtərəfli və qərəzlidir: "Makronun bəyanatı bölgə və beynəlxalq təhlükəsizliyin təmin edilməsinə xidmət etmir və açıq-aydın hiss olunur ki, Fransa işğalçının yanındadır. Həmçinin Minsk qrupu həmsədri kimi, Fransa vasitəçilik missiyasını yerinə yetirmir, hər cəhdlə erməniləri qorumağa, mühafizə etməyə çalışır, qərəzli və siyasi etik qaydalara sığmayan bəyanatları ilə Azərbaycan torpaqlarının zəbt olunmasının davamında Ermənistan və ermənilərə yardımçı olacağını sübut etmək istəyir. Ancaq qəbul olunan bəyanatlar, mənasız istəkləri elə istək olaraq qalıb və bundan sonra da mənasız qətnamələr olaraq adi kağızlar kimi cırılıb zibil yeşiklərinə atılacaq. Digər bir məqam isə, Makronu daha çox narahat edən məsələ Türkiyənin bu savaşda iştirak etməsidir və Fransa Türkiyənin Azərbaycana olan siyasi dəstəyini də həzm edə bilmir. Bu qardaşlığın, dostluğun səyləri nəticəsində əldə etdiyimiz qələbə, eyni zamanda, Türkiyənin bölgədə nüfuzunun artması, təbii ki, Makronu daha ciddi narahat edir".

M.Məmmədov həmçinin onu da vurğulayıb ki, hər kəs, eləcə də faransızlar bilməlidir ki, Azərbaycan işğalçıya qarşı Vətən Müharibəsi aparır: "Bu savaş Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək uğrunda Vətən Müharibəsidir. Bu bizim haqq işimizdir. Dağlıq Qarabağ mübahisəli torpaq deyil, Azərbaycanın əbədi, əzəli və beynəlxalq hüquq tərəfindən tanınmış tarixi torpağıdır. Azərbaycan 44 günlük Vətən müharibəsində öz sözünü dedi və igid oğullarımızın qanı, canı bahasına öz ərazi bütövlüyünü təmin etdi. Noyabrın 25-də Fransa Senatında müzakirəyə çıxardığı və qəbul etdiyi o kağız parçasının isə heç bir təsiri yoxur. Çünki artıq Azərbaycan haqq işində qalib gəlib, istər Fransa siyasi dairələri, senatorlar, həmçinin ermənipərəst dairələr əmin ola bilərlər ki, onların ikili mövqeyi, riyakarlığı, işğalçıya dəstək vermələri və ağa qara demələri, habelə Ermənistan təəssübkeşliyinin növbəti təzahürü olan bu kağız parçası Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. BMT çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü tanıyan Fransa bu cür addımlarla açıq-aydın beynəlxalq hüququn normalarına qarşı çıxış etməklə tam ermənipərəst mövqe nümayiş etdirir. Bir daha Azərbaycana qarşı işğalçılıq siyasətini sübut edir. Həmçinin, bu addımla BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının qeyd-şərtsiz boşaldılması ilə bağlı qəbul etdiyi 4 qətnamənin heçə sayılmasıdır. Çünki həmin qətnamələrə səsverən Fransa olub və bu gün isə öz-özünü inkar edir. Ancaq onlar hər zaman xəyanətin cavabını alıblar və alacaqlar. Azərbaycan isə qalib ölkə, qalib xalqdır. Dövlət başçımızın dediyi kimi, "Qarabağ Azərbaycandır! və nida! işarəs".

***RƏFİQƏ HÜSEYNOVA***

# Ter-Petrosyan: "Paşinyan "ümummilli fəlakət" sayılır"

***L**evon Ter-Petrosyan Paşinyanın postuna sərt reaksiya verib və Ermənistanın ilk prezidenti baş nazir Nikol Paşinyanı "ümummilli fəlakət" adlandırıb və qeyd edib ki, onun sərsəm bəyanatlarını, danışıqlarını, ifadələrini şərh etməyin də mənası yoxdur. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, işğalçı ölkənin ilk prezidentinin bu sözlərini Ter-Petrosyanın mətbuat katibi Arman Musinyan öz Facebook səhifəsində yazaraq, paylaşıb.*





Məlumatda qeyd olunduğuna görə, Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan hesab edir ki, baş nazir Nikol Paşinyanın özünə haqq qazandırmaq şansı yoxdur və erməni xalqı onu heç vaxt bağışlamayacaq.

Bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan eks prezidentlər Levon Ter-Petrosyan və Robert Köçəryanın Moskvaya uğursuz səfərə hazırlaşdəqları barədə danışmışdı. Paşinyana görə, Vladimir Putinin keçmiş prezidentləri xüsusi elçi olaraq qəbul etməsi üçün ona vasitəçi rolunu oynamağı təklif ediblər, amma razılaşmayıb.

Prezident Ter-Petrosyan isə öz növbəsində, milləti məhvə aparan bu "milli fəlakətin" xəstə, axmaq fikirlərinə münasibət bildirməyi də mənasız saydığını bəyan edir. "İstədiyini danışsın. Eyni şəkildə özünə haqq qazandırmaq üçün zərrə qədər şansı yoxdur. Erməni xalqı onu heç vaxt bağışlamayacaq", deyə Musinyan öz social şəbəkə hesabında yazıb.

Bundan əvvəl, Ermənistanın ikinci prezidentinin aparat rəhbəri Viktor Soqomonyan Sputnik Armeniaya verdiyi müsahibəsində Paşinyanın vəzifəsinin yalan və saxtakarlıq qarışığı olduğunu bildirmişdi.

Xatırladaq ki, Ermənistanın keçmiş prezidentləri Levon Ter-Petrosyan və Robert Köçəryanın Dağlıq Qarabağdakı vəziyyəti müzakirə etmək üçün Moskvaya gedəcəyi bildirilib. Qondarma rejimin əvvəlki rəhbərləri Arkadi Qukasyan və Bako Saakyan, oktyabrın 20-də baş nazir Nikol Paşinyanla görüşdə, Ermənistanın keçmiş liderlərinin Rusiyadakı elitanın nümayəndələri ilə Qarabağdakı vəziyyəti müzakirə etmək və mövcud vəziyyətdən çıxış yolu üçün konkret təkliflər hazırlamaq üçün Moskvaya getmək istədiklərini ona bildiriblər. Paşinyanın mətbuat katibi Mane Qevorqyan, baş nazirin bu təkliflə razılaşdığını, lakin sonradan Köçəryana koronavirus diaqnozu qoyulduğunu söyləyib.

***İnam Hacıyev***

# "Paşinyan hakimiyyətdə qala bilməyəcək"

*"**E**rmənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, eyni zamanda Qarabağ erməniləri ilə Ermənistan erməniləri arasındakı qarşıdurma bir növ 1992-1993-cü illərdəki Azərbaycanı xatırladır. Bunun səbəbi odur ki, müharibədəki məğlubiyyətdən sonra Paşinyan hakimiyyətinin istefasını tələb edən xalqa qarşı iqtidar repressiya siyasətini davam etdirdiyi təqdirdə etirazçılar da məqsədlərinə çatmayana qədər mitinqlərə son qoymayacaqlar". Bunu SİA-ya millət vəkili Anar Məmmədov deyib.*



Deputatın sözlərinə görə, Azərbaycan qarşısında acı məğlubiyyətə uğrayan ölkənin baş naziri bu gün iqtidardan getməmək üçün diktatura rejimini hər gün daha da sərtləşdirir, demokratik azadlıqların tapdanmasını adi hala çevirir, fərqli düşünənləri ciddi şəkildə cəzalandırır, siyasi partiya rəhbərlərinin, siyasi fəalların saxlanılmasına göstəriş verir, deputatlara qarşı hücumlar təşkil edir: "Hətta Qarabağda döyüşən, ancaq varlığından xəbər olmayan əsgərlərin valideynləri etiraz səslərini ucaltdıqlarına görə polis zorakılığına məruz qalırlar. Bütün bunlarla bərabər, İrəvana gələn Qarabağ ermənilərinin məskunlaşma ilə bağlı yerli ermənilərlə ədavəti bir daha sübut edir ki, Ermənistan hakimiyyəti məntiqli, rasional düşüncəyə malik deyil, onlar erməni xalqının yox, sırf xarici qüvvələrin maraqlarına xidmət edirlər. Ermənistana gələnlərin çox az hissəsi vətəndaşlıq almaq arzusunda olur, on minlərlə insan isə Ermənistan vətəndaşlığından imtina edir. Bunun başlıca səbəbi işğalçı ölkənin baş nazirinin indiyə kimi xalqını aldadıb, həqiqəti gizlətməsidir. Xalq ilk olaraq isə bunu tələb edir.

Ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan Ermənistanın üzləşdiyi böhranın qarşıdakı müddət ərzində daha da dərinləşəcəyi istisna deyil. Belə vəziyyətdə Ermənistanda sayı sürətlə azalmaqda olan əhalinin hakimiyyətə qarşı sosial narazılığının daha da güclənəcəyi, eyni zamanda, miqrasiya prosesinin yeni vüsət alacağı ehtimalını sürətləndirir.

Artıq bu bir faktdır ki, Paşinyanın hakimiyyətdə qalmaq istəyi mümkün olmayacaq. Əvvəlki dövrlərdə ölkədəki hakimiyyət komandaları iqtidarda qalmaq üçün daxili auditoriyaya Ermənistanı qalib ölkə kimi təqdim edirdilər. Necə deyərlər, xəstə təfəkkürü və işğal siyasətini bütün erməni cəmiyyətinə sırımışdılar. Amma bu siyasətin Ermənistanı iflic vəziyyətinə salması son illərdə özünü daha qabarıq büruzə verdi. Paşinyan da hakimiyyətə gəldikdən sonra əvvəlki iqtidarların siyasətini davam etdirdi. İndi bu amil aradan qalxıb. Amma istənilən halda ölkədə baş verənlər yeni toqquşmalar və vətəndaş qarşıdurması üçün münbit şərait yaradıb. Ermənistanda daha xaotik hadisələrin baş verəcəyi isə qaçılmazdır. Lakin əfsuslar olsun ki, Avropa dövlətləri, beynəlxalq təşkilatlar müxalifətin bu qeyri-demokratik kampaniyasına səssiz qalır, demokratiya və insan haqlarının qorunmasından bəhs etmir.

Bütövlükdə isə bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını göstərir. İşğal siyasətinin qurbanı olan bu ölkə üzləşdiyi problemlərdən hələ uzun müddət xilas ola bilməyəcək.

# Bekaryan Paşinyana diaqnoz qoydu: psixdir!



*"**N**ikol Paşinyan danışıqları məhv etdi, indi isə həyasızcasına yalan yazır". SİA xəbər verir ki, bu barədə "Armnews" televiziyasında politoloq Karen Bekaryan Paşinyanın Qarabağla bağlı bəyannaməni imzalamasının səbəbləri barədəki çıxışını şərh edərkən deyib. "O, kimi axmaq hesab edir? Məgər o nə ilə müqayisə etdiyini anlamır?", deyə Bekaryan sual edib.*

Paşinyanın 2018-ci ildə Qarabağ məsələsinin dalana dirənməsi ilə bağlı fikirlərinə toxunan erməni politoloq deyib: "Bu, növbəti həyasız yalandır, çünki onun özü şəxsən danışıqlar prosesini dalana diräyib, birincisi - lift razılaşmasıdır. Bundan sonra Azərbaycan Naxçıvan da daxil olmaqla bütün sərhəd boyu öz mövqelərini yaxşılaşdırdı. Sən isə (Paşinyana xitabən) heç nə edə bilmədin, çünki bacarmırdın. Biz bir ildən çoxdur ki, ictimaiyyətə izah edirik ki, bu cür düşünülməmiş razılaşmalar, hətta həyatları qurtarsa da, müvəqqəti xarakter daşıyır, çünki digər tərəf hazırlaşır".

Erməni politoloq: "Belə olan halda diplomat nəyə söykənməlidir, biz nəyə görə mübarizə aparırdıq?"

"İkincisi, sən bütün danışıqlar prosesindəki gedişləri sarsıdırsan və anidən, hazırlaşmadan, məsləhətləşmədən bəyan edirsən ki, Dağlıq Qarabağı təmsil edə bilməzsən. Öz düşüncənlə "dağıdıcı" inqilab həyata keçirəndə, qarşı tərəf bundan istifadə etdi", deyən Bekaryan Paşinyanın bir az da qabağa gedərək, Qarabağdakı fikirlərini xatırladıb.

"Üçüncü fəaliyyət - getdin və "Stepanakertin" (dırnaqlar bizimdir) "Dirçəliş" meydanında bəyan etdin ki, "Artsax" Ermənistandır və nöqtə". Belə olan halda diplomat nəyə söykənməlidir, biz nəyə görə mübarizə aparırdıq? Edilən bəyanatların heç birinin bir-biri ilə bağlılığı olmayıb. Bütün diplomatik korpus, dövlət aparatı iflic oldu", erməni politoloqu bildirib.

Karen Bekaryan: "Marazm bütün hədləri aşıb"

Bekaryan ölkədə ağılsızlıq paradının getdiyini bildirib və təyin edilən yeni xarici işlər nazirinin bu vəzifəyə necə razı olmasını anlamadığını, bu məsələni öz vicdanına buraxdığını da deyib: "O deyir ki, biz hərbi sferada məğlub olmuşuq, diplomatiyada deyil. Başqa cür desək, marazm bütün hədləri aşıb".

Karen Bekaryan Araik Arutunyanı da unutmayıb. "Özünü "DQR"in prezidenti adlandıran adam müharibəyə bir neçə gün qalmışa qədər bəyan edirdi ki, hətta status olsa belə biz əraziləri verməyəcəyik, fəqət bu da müharibəyə təhrik deyildisə, bəs nə idi? İndi isə onlar nağıllar danışırlar", erməni politoloqu bildirib.

"Bu, artıq absurdun zirvəsidir"

Paşinyanın Şuşa haqqındakı interpretasiyasına toxunan Bekaryan bildirib ki, burada üç hissə var: "Bu, səhər mətnidir - onu psixiatrlara vermək lazımdır, çünki bu adam "vətənin" (dırnaqlar bizimdir) bir hissəsini təhvil verməklə, bu qədər qurban verməklə ölkəni elə bir kollapsa gətirib-çıxarıb ki, indi də özü mövqeyinə görə mübarizə aparır. Bu, artıq diqnozdur və bu diaqnozla məşğul olmaq lazımdır. Bunu təhlil etdikdə, səni daha qəti şəkildə xain adlandıranda - bu, artıq absurdun zirvəsidir. " Karen Bekaryan bildirib ki, Paşinyanın özünün davranış qaydası psixiki xəstəlikdir.

***Rövşən RƏSULOV***

# Co Bayden itlə oynadı, ayağını sındırdı



**A**BŞ-ın yeni seçilmiş prezidenti Co Bayden ayağını sındırıb. Hadisə C.Bayden iti ilə oynayarkən baş verib. Həkimlər yeni seçilmiş prezidentin pəncə sümüyünün sınığı diaqnozu qoyub. Siyasətçi bir neçə həftə ərzində xüsusi ayaqqabıda gəzməli olacaq. Qeyd edək ki, Co Bayden noyabrın 3-də keçirilmiş prezident seçkilərində qalib gəlib.

# Gevorq Qorqisyan: "İnsanlar öz tələbləri ilə küçələrə çıxmağa hazır deyillər"

"**B**ir neçə vasitə var ki, Ermənistanın baş naziri Nikol Paşinyanın istefasına nail olmaq mümkündür və bunun üçün konstitusiyanın imkan verdiyi bütün yollardan istifadə etmək lazımdır". SİA xəbər verir ki, bu barədə Ermənistanın NovostiNK nəşrinə "Maariflənmiş Ermənistan" parlament fraksiyasının deputatı Gevorq Qorqisyan deyib.

"Küçələrdə az etirazçının olmasının və baş nazirin istefasını tələb edənlərin çoxluq təşkil etməməsinin bir çox obyktiv səbəbləri var", deyən erməni deputat qeyd edib ki, müharibə başa çatıb, insanlar şoksonrası vəziyyətdədirlər, bəziləri yenicə sərhəd bölgələrindən geri qayıdıblar, bəziləri isə yaxınlarını, tanışlarını axtarırlar: "Lakin bu, heç cür deməyə imkan vermir ki, ictimai rəydə hakimiyyətdən narazı qalanlar yoxdur. Mövcud vəziyyətdə insanlar öz tələbləri ilə, sadəcə, küçələrə çıxmağa hazır deyillər".

Qorqisyan hesab edir ki, Paşinyanı gəldiyi kimi hakimiyyətdən uzaqlaşdırmaq metodu mümkün deyil. Müxalifətçi deputat xatırladıb ki, Serj Sarqsyanın Nikol Paşinyan tərəfindən dəyişdirilməsi Ermənistanın məhvi ilə nəticələndi. O, təmsil etdiyi partiyasının 13 maddəlik yol xəritəsi hazırladığını da xatırladıb və bildirib ki, onlardan birincisi Paşinyanın hakimiyyətdən getməsi ilə bağlıdır. Bu müddəa olmadan, yol xəritəsinin digər müddəalarının həyata keçirilməsi mümkünsüz olar.

***Rövşən RƏSULOV***

# Atropetana: qədim dövlətimizin etnik, dini, mədəni tarixi

***"Artaksinin və Zariadrinin müharibələri əvvəllər kiçik bir ölkə olmuş Ermənistanı böyütdü... Onlar qonşu xalqların torpaqlarının bir hissəsini qoparıb mənimsədilər" - Strabon***

Ermənilərin saxtakar tarixçiləri daim iddia edirlər ki, guya ermənilər qədimdən Qafqazda məskunlaşıb və bu torpaqlarda olan qədim mədəniyyət, tarixi abidələr, dini məbədlər onlıara məxsusdur. Halbuki, tarix elmi bunun tam əksini göstərir. Ermənilər son əsrlərədək Qafqazda yaşamayıblar, onlar indiki Türkiyə, İran və Suriya ərazilərində yaşamış və köçəri tayfa kimi Asiyanı gəzib dolanmışlar. Əvvəlki yazılarımızda, Qafqaz Albaniyanın qədim tarixi, mədəniyyəti, dini və etnik tərkibi haqda məlumat vermişik. Bu yazıda isə, hazırda adını daşıdığımız qədim Azərbaycan dövləti olan Atropatenadakı etnik, dini, mədəni proseslər haqda məlumat verəcəyik.

## 2500 illik Azərbaycan dövləti- Atropatena

Atropatena (Azərbaycan adının qədim variantı)- tarixi Azərbaycan torpaqlarının bir hissəsində mövcüd olmuş qədim dövlətimiz. Dünyanın ən qədim mədəniyyətlərindən birini, ən qədim dövlətçilik sistemlərindən birini bərpar edən ölkə. Bu gün tarixi torpaqlarımızın kiçik bir hissəsində yaradılmış və adını daşıdığı respublikamızın sələfi olan qədim dövlətimiz. Əslən midiyalı olan Atropat e.ə. IV əsrin 20-ci illərinin sonunda yeni dövlətin müstəqil hökmdarı olur; bu dövlət rəsmən Mada, sonralar isə antik qaynaqlarda özünün ilk hökmdarının adı ilə Atropatena adlandırılır.

Atropatenanın ərazisi hazırki İranın şimal-qərb vilayətlərini, Azərbaycan Respublikasının cənub ərazilərini əhatə edib. Ərəb coğrafiyaşünası İstəxriyə görə, Atropatena Şərqdən Guhistan (Gilan) və Xəzər dənizi, Qərbdən Ərməniyyə (Şərqi Anadolu), Şimaldan Allan Böyük Qafqaz dağları, Cənubdan İraq Cəzirəsi ilə həmsərhəddir.

Cənubi Azərbaycanın bütün ərazisi və Şimali Azərbaycan torpaqlarının xeyli hissəsi bu və ya digər dərəcədə Atropatenaya daxil idi. Atropatena əhalisinin atropaten dili və yazı ənənələri olan bir ölkə idi. Atropatenanın adı müxtəlif dilli mənbələrdə fərqli şəkildə qeyd edilib. Əksər tarixçilərə görə, Azərbaycan öz adını Atropatenadan alıb. Antik müəlliflərdən Plutarx, Ammian Marselin bu ölkəni Atropat Midiyası adlandırıblar. Strabon isə Atropatena ərazisini Kiçik Midiya adlandırıb, Atropatın başçılığı ilə Kiçik Midiya ərazisində Atropatena dövlətinin təşkil edildiyini göstərib. Sasani hakimiyyəti dövründə ölkə Adərbadaqan, ərəbdilli mənbələrdə isə Adərbican kimi qeyd olunur.

Atropatena ərazisi ərəblər tərəfindən fəth edildikdən sonra isə Atropatenanın adı erkən ərəbdilli mənbələrdə "Adabarqan", "Azərbaycan" kimi işlənməyə başlanıb. Daha sonrakı dövr ərəb tarixçilərin əsərlərində isə həmin ad ancaq "Azərbaycan" kimi göstərilib.

## Atropatenada əsas dini təlimlər

Qədim atropatenalılar Zərdüştün yaratdığı Zərdüştülük dininə sitayiş edirdilər. Artıq e.ə. I minilliyin ilk əsrlərində Qərbi Madada (Midiya), xüsusilə gələcək Atropatenada müxtəlif mazdaist təlimlər yayılmışdı. Burada və ona qonşu olan ərazilərdə təxminən həmin minilliyin başlanğıcında Avesta ocaqlarının mövcud olduğunu bir çox müəlliflər qeyd ediblər.

Avestaya gəldikdə göstərmək lazımdır ki, bu müqəddəs kitabın bizə gəlib çatmış nüsxəsi Sasanilər dövründə dövlət dini kimi elan olunmuş "Avesta" məcmuəsinin bir hissəsidir.

Belə güman edirlər ki, Sasanilər sülaləsinin hakimiyyəti dövründə, Avesta bir neçə dəfə - III, IV, hətta VI və VII əsrlərdə kodifikasiya edilib. Hesab edirlər ki, məhz zərdüştiliyin intibahı dövrü olan Sasanilər hakimiyyəti zamanında Avestanın müqəddəs mətnlərinin daha dəqiq, incə çalarlarını ifadə edən yazılışı üçün pəhləvi əlifbası (öz mənşəyi etibarilə arami yazısına gedib çıxır) əsasında xeyli miqdarda işarələri olan xüsusi şrift yaradılmışdı (bu isə tələffüzü daha dəqiq çatdırmağa imkan verirdi). Nüfuzlu tədqiqatçıların fikrincə, bu şrift birdəfəlik fərdi yaradıcılığın nəticəsi idi. Maraqlıdır ki, bu hadisə gürcü, erməni və alban əlifbalarının meydana gəldiyi bir zamanda baş verib

Avestanın kanonlaşdırılmış mətni pəhləvi (Sasani İranının yazı dili- orta fars dili) dilinə tərcümə və şərhlə təchiz edilmişdi.

Atropatenada bəzi tayfalar bütpərəstlik dinlərinə sitayiş edirdilər ki, bunların da bir çoxu yunan-roma mədəniyyətinin təsiri ilə formalaşmışdı. Eramızın ilk əsrlərində burada xristianlıq da yayılmağa başlayırdı. Bu barədə yazımızın 2-ci hissəsində danışacağıq.

## Atropatenanın etnik tərkibi necə olub?

Eramızdan 5-6 yüz il əvvəl Müasir İranın şimalında yaşayan tayfaların və xalqların- kuti, lullubi, mannalı və başqalarının madalılarla qaynayıb-qarışması nəticəsində yeni bir etnos- madalıların üstünlük təşkil etdiyi atropatenalılar etnosu təşəkkül tapdı.

Atropatena tayfaları arasında maqlar xüsusi yer tuturdular. Onlar Zərdüşt dini ayinlərinin əsas icraçısı olub, xalq içərisində böyük nüfuza malik idilər. Maq dedikdə, təkcə bu adı daşıyan tayfa deyil, eyni zamanda Zərdüşt dininin kahini nəzərdə tutulurdu. Maqlar Zərdüştün varisləri sayılırdı. Muğam sözünün mənasının da maqların (muğların) müqəddəs mahnıları demək olduğunu bir çox fiololqlar təsdiq edir.

Ərəbdilli qaynaqlarda ilk orta əsrlərdə Cənubi Azərbaycan əhalisinin böyük bir hissəsinin azərilərdən ibarət olduğu göstərilir.




Mənbələrdə adları keçən Atropatena tayfalarından biri də Qafqaz albanlarıdır. I əsr müəllifi Strabonun verdiyi məlumatdan aydın olur ki, Qafqaz albanları təkcə Azərbaycanın Arazdan şimaldakı ərazisində deyil, həm də Arazdan cənubdakı ərazilərində yaşayıblar. Strabon albanların Atropatenada, Midiya dağlarında yaşamasını qeyd edir. Müəllif yazır ki, albanlar kellər, kaduslar, utilər və mardların qonşuluğunda yaşayırlar.

Atropatenada tatlar, yəhudilər, gurganlar, parslar və mardlar da yaşayırdılar. Onların bir hissəsi Sasanilər vaxtında şimala köçürülüb. Erkən orta əsrlərdə Cənubi Azərbaycan ərazisinə bir sıra yeni türk tayfaları gəlib məskunlaşmışdı. Atropatenada (yəni, cənubi Qafqaz və Şimali İran əraziləri) ermənilər yaşamayıb, onlar bu ölkənin cənub-qərb sərhədlərindən o tərəflərdə yaşamış və kiçik çarlıq yaratmış davakar tayfa olublar.

## Atropatena və Ermənistan əlaqələri

Bu ərəfədə Ermənistan yaylasında meydana gələn erməni çarlıqları, xüsusilə Artaşesin çarlığı lap əvvəldən özlərini çox təcavüzkar aparır, qonşularına qarşı fəal qəsbkarlıq siyasəti yeridirdilər.

Strabon yazır: "...Artaksinin və Zariadrinin müharibələri əvvəllər kiçik bir ölkə olmuş Ermənistanı böyütdü... Onlar birlikdə qonşu xalqların torpaqlarının bir hissəsini qoparıb mənimsədilər. Onlar midiyalılardan (atropatenalılardan) Kaspianani, Favnitidanı və Basoropedanı, iberlərden Pariadr dağlarının ətəklərini, Xorzenanı və Qoqarenanı... xaliblərdən və mossiniklərdən Karenitidanı və Kseroksenanı..., kataonlardan Akilisenanı və Antitavrboyu vilayəti, suriyalılardan Taronitidanı... tutub aldılar".

E.ə. III əsrin 20-ci illərində Atropatena taxt-tacında biz Arazın yalnız cənubunda deyil, şimalında da çox geniş əraziyə malik olan, antik yunan müəllifi Polibinin təbiri ilə desək, "ən qüdrətli və ən müdrik hökmdarı", "atropatilər və onlarla həmsərhəd xalqlar üzərində" hökmranlıq edən Artabazanı görürük.

Polibinin yazdığına görə, Artabazanın dövləti Kaspi dənizindən Rioni çayının yuxarılarınadək uzanırdı; beləliklə, Ermənistanı və İberiyanı da, hər halda onların müəyyən bir hissəsini əhatə edirdi. Bu vilayət, yunan müəllifinin (Polibinin) təsdiq etdiyinə görə, "...Midiya ilə yanaşı olub ondan dar silsiləsi ilə ayrılır, onun bəzi hissələri Fasisdən (Rionidən) yuxarıdakı yerlərdə Pontun (Qara dənizin) üzərində yüksəlir; digər tərəfdən o, Hirkan (Xəzər) dənizinə qədər çatır. Vilayətdə əsasən at belində vuruşan və müharibə üçün daha nə lazımdırsa hamısına kifayət qədər malik olan güclü bir xalq yaşayır".

Gürcü mənbələrinə görə, e.ə. III əsr Kartli (İber) çarlığı tarixində "fars" elementlərinin (bu adın altında Atropatena midiyalılarını nəzərdə tutulur) üstünlüyü dövrü olub. Məhz bu zaman Atropatena ilə Ermənistan arasında sıx siyasi, mədəni və digər əlaqələr yaranır. Bu dövrün erməni əyanları arasında anadangəlmə atropatenalılar az deyildi. Atropatena və erməni kübarları arasında nikah əlaqələri isə adi hal idi.

Ermənistanla münasibətlər heç də həmişə rəvan olmurdu. Dostluq, nikah əlaqələrini, ənənəvi mədəni-iqtisadi təmasları bir çox hallarda açıq düşmənçilik, bəzən hərbi toqquşmalar dərəcəsinə çatan düşmənçilik əvəz edirdi.

## Atropatena mədəniyyətindən nə qalıb?

Atropatenanın antik ənənə ilə salınan bir neçə şəhəri haqqında məlumatlar var. Bunlar Qazaka, Fanaspa, Fraaspa, Aqanzana şəhərləri və Atropatena ərazisində tapılmış bir neçə qədim yaşayış yeri, o cümlədən Mil düzündəki Təzəkənd yaşayış yeridir. Qədim adlarını bilmədiyimiz, lakin ümumən antik dövrə aid olan bir neçə başqa abidə də məlumdur.

Mənbələr Atropatenanın ikiyay və yaz paytaxtlarının olmasından xəbər verir. Ölkənin yay paytaxtı Vera- indiki Marağa şəhəri, yaz paytaxtı isə farsdilli mənbələrin Qazaka, ərəbdilli mənbələrin isə Şiz adlandırdıqları Gəncək şəhəri olub. Gəncək şəhəri öz adını sak tayfalarından biri olan gəncəklərin adından alıb.1958-ci ildə İran və Almaniya arxeoloqlarının Təxti-Süleyman ərazisində arxeoloji qazıntılar aparması nəticəsində Qazaka şəhərinin xarabalıqları və möhtəşəm Azərgüşnasp məbədinin qalıqları aşkarlanıb. Burada Şiz məbədinin qalıqları tapılıb.

Bu gün həm Azərbaycan Respublikasında, həm də Şimali İranda Atropatenanın tarixi və mədəni irsinə aid xeyli sayda tikili, məbəd, qəbirüstü abidələr, həmçinin mədəni tapıntılar var.

***Elçin Bayramlı***

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

1 dekabr

## Gözün aydın, xalqım, Şuşa alındı!




*"İrəli!" əmrini verib Komandan,*
*Vətən dardadırsa kim əsirgər can,*
*Hər yerdə yağıya qusdururuq qan...*
*Sərkərdə hayqırır: - Zəfər çalındı,*
*Gözün aydın, xalqım, Şuşa alındı!*
*Qələbə ulayır o Boz Qurdumuz,*
*Tapdaqdan qurtulur ana yurdumuz,*
*Yeni tarix yazır Şanlı Ordumuz,*
*Sərkərdə hayqırır: - Zəfər çalındı,*
*Gözün aydın, xalqım, Şuşa alındı!*
*Ürəyində cəngi, beynində cəngi,*
*Hərəsi bir aslan, pələngdi sanki,*
*Yaşa Şanlı Ordum! Gəldi o an ki*
*Sərkərdə hayqırır: - Zəfər çalındı,*
*Gözün aydın, xalqım, Şuşa alındı!*
*Düşmən məhv edilir, daim xar olsun,*
*Milli Ordumuza tanrı yar olsun,*
*Ali Baş Komandan İlham var olsun!*
*Sərkərdə hayqırır: - Zəfər çalındı,*
*Gözün aydın, xalqım, Şuşa alındı!*
*Paytaxt etdiyiniz Yerevan bizim,*
*Gözəllər gözəli o Sevan bizim,*
*Zəngəzur, Dilican, Berd, Qafan,.. bizim,*
*Sərkərdə hayqırır: - Zəfər çalındı,*
*Gözün aydın, xalqım, Şuşa alındı!*

## DALĞALANIR BAYRAQ KİMİ O YUMRUQ!

O yumruq - bütövlük, birlik rəmzimiz,
İnkişaf rəmzimiz, dirlik rəmzimiz,
İmzamız, möhrümüz, varlıq rəmzimiz,
Dalğalanır Bayraq kimi o yumruq!
O yumruq - gücümüz, dronumuzdur,
O yumruq - bir olan zamanımızdır,
O yumruq - Kəbəmiz, Quranımızdır,
Dalğalanır Bayraq kimi o yumruq!
O yumruq düşmənin əzir başını,
Daş üstə yağının qoymur daşını,
Səfərbər eyləyir xalqı, qoşunu,
Dalğalanır Bayraq kimi o yumruq!
O yumruq - gücü dağ, Azərbaycandır!
O yumruq - Qarabağ Azərbaycandır!
O yumruq - hər bir çağ Azərbaycandır!
Dalğalanır Bayraq kimi o yumruq!

O yumruq - düşməni yerlə bir edər,
O yumruq - bir Günəş, yolu nur edər,
O yumruq - yurdumu bütöv, hürr edər,
Dalğalanır Bayraq kimi o yumruq!
O yumruğa Allah qüvvət, boy verir,
Bakı, Təbriz, Kərkük, Dərbənd,... hay verir,
Soydaşlarım - 60 milyon oy verir,
Dalğalanır Bayraq kimi o yumruq!

***Nazim Hüseynli,***
***"Oğuz yurdu" qəzetinin redaktoru,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***
***8 noyabr 2020-ci il***

## "Barselona" Messiyə görə cərimələnəcək

La Liqa rəhbərliyi "Barselona"nı cərimələyəcək. Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, buna kapitan Lionel Messinin ötən gün "Osasuna" ilə matçda Dieqo Maradonanın xatirəsini yad etmək üçün onun "Nyuells Old Boys" formasını geyinməsi səbəb olub.

Futbolçu sözügedən geyimi öz oyun formasının altından geyinsə də, qol vurduqdan sonra öz formasını çıxararaq, həmin geyimi nümayiş etdirib və Maradonanı yad edib. La Liqa və FİFA-nın qaydalarına uyğun olaraq, oyunçulara futbol formasını çıxarmağa görə sarı vərəqə verilir və klub cərimə olunur. Beləliklə, Kataloniya klubu argentinalı oyunçuya görə 13 min avro ödəmək məcburiyyətində qalacaq. Qeyd edək ki sözügedən qarşılaşma "Barselona"nın 4:0 hesablı qələbəsi ilə başa çatıb.







## "Nar"ın 4G istifadəçilərinin sayı 35 % artıb

Abunəçilərini kəsintisiz və sürətli internet təcrübəsi ilə təmin etməyi hədəfləyən "Nar"ın 2020-ci ilin 9 ayı ərzində 4G istifadəçilərinin sayı 35 % artıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 4G istifadəçilərinin sayı Bakı üzrə 27 %, regionlar üzrə isə 51 % yüksəlib.

Mobil operatorun bütün ölkə ərazisində LTE/LTE-A texnologiyalı baza stansiyalarını genişlənməsi, təqdim etdiyi sərfəli tariflər və internet paketləri sayəsində mobil internetdən istifadədə artıma səbəb olub. Bele ki, ötən ilin eyni dövrü ilə müqayisədə mobil internetdən istifadədə 21 % artım qeydə alınıb. İnternet trafikinin həcmi Bakı üzrə 9 %, regionlar üzrə isə 42 % yüksəlib. Qeyd edək ki, data tarfikinin həcminin yüksəlməsinə həm də 4G smartfon penetrasiyasının artımı təsir edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin 9 ayı ərzində smartfon istifadəçilərinin sayında 12 % artım qeydə alınıb.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Dünya ŞOKDA: Dünyada şirin su ehtiyatları 20 faizdən çox azalıb

3 milyarddan çox insan su çatışmazlığı hiss olunan kənd təsərrüfatı rayonlarında yaşayır. Mərkəzi Asiyada belə rayonlarda əhalinin təxminən 20 faizi yaşayır. barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) yeni hesabatında məlumat verilir.

FAO ekspertlərinin sözlərinə görə, planetdə adambaşına düşən şirin su ehtiyatları son 20 ildə 20 faizdən çox azalıb. Onlar su resurslarından daha səmərəli istifadə edilməsinin zəruriliyini vurğulayırlar. "FAO-nun hesabatı həyəcan siqnalıdır. Kənd təsərrüfatında su çatışmazlığı problemini həll etmək üçün ən qısa müddətdə qəti tədbirlər görmək lazımdır", - deyə təşkilatın rəhbəri Süy Dunyuy bildirib.



FAO-da qeyd edirlər ki, su ehtiyatlarının səmərəli idarə olunması, xüsusilə quraqlığa davamlı kənd təsərrüfatı bitkilərinin tətbiqi, aqrar sektorda ən yeni texnologiyalardan istifadə, suvarma sistemlərinin modernləşdirilməsi, suya kvotaların tətbiq edilməsini nəzərdə tutur.

FAO-nun rəqəm və faktlardan ibarət olan məruzəsindən göründüyü kimi adambaşına alınan suyun ən yüksək göstəriciləri Mərkəzi Asiyada müşahidə olunur. Ən az inkişaf etmiş ölkələrdə əhalinin 74 faizinin təmiz içməli suya çıxışı yoxdur. 91 ölkənin kənd rayonlarının təmiz su ilə təmin edilməsi üzrə milli plan hazırlanıb. Lakin onlardan yalnız doqquzunun buna lazımi vəsait ayırdığı bildirilir. eyd edək ki, bioyanacaq qazıntı yanacağı növlərindən 70-400 dəfə çox su tələb edir.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**